03_27 IYUl-QARA.qxd 1/22/2026 10:58 PM Page 1


# UNİKAL

№03 (2282) 23 yanvar 2026-cı il

Qiyməti 50

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# 1 ildə korrupsiya cinayəti törədən 18 nəfər "iş" başında yaxalanıb

*Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2025-ci il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. "Unikal" xəbər verir ki, baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilən müşavirədə müavin - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov məruzə edib. Bildirilib ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 11671 müraciətinə baxılıb. Əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş...*

Səh.9

# İlham Əliyevlə Tramp arasında mühüm görüş: Sülh məsələsi yenidən müzakirə olundu



Səh.3

## "Növbəti bir il ərzində minimum əməkhaqqı artа bilər"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Əmək Məcəlləsində minimum əməkhaqqı məbləğinə ildə bir dəfədən az olmayaraq yenidən baxılması ilə bağlı dəyişikliyin əhəmiyyətindən, Azərbaycanda sektorlar üzrə minimum əməkhaqqının müəyyənləşməsinin üstünlüklərindən...*

Səh.4

## Diplomatik jest, yoxsa güclü ilə ehtiyatlı rəftar?



*Ermənistan prezidenti Vaaqn Xaçaturyanın Davosda keçirilən Dünya İqtisadi Forumundakı çıxışı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dəfələrlə təşəkkür etməsi müzakirə mövzusuna çevrilib. Ermənistan prezidentinin Davosdakı çıxışını İlham Əliyevə yönəlik diplomatik...*

Səh.9

## Elçin Əmirbəyov Bakı-İrəvan sülh prosesini müzakirə edib



*Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Bakıda səfərdə olan NATO Baş katibinin müavini Radmila Şekerinska ilə görüşüb. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın NATO-dakı daimi nümayəndəliyi "X" hesabında paylaşım edib. Görüş zamanı Azərbaycan və Ermənistan...*

Səh.2

03_27 IYUl-QARA.qxd 1/22/2026 10:57 PM Page 5



# İlham Əliyev Mirziyoyev və Orbanla görüşdü



***Azərbaycan Respublikası prezidenti İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Macarıstanın Baş naziri Viktor Orban Davos Forumu çərçivəsində görüşüblər.***

"Unikal" xəbər verir ki, onlar qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər.

Liderlər Türk Dövlətləri Təşkilatı çərçivəsində də daxil olmaqla, çoxtərəfli əməkdaşlığın perspektivlərinə xüsusi diqqət yetiriblər.

# Prezident "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimində




***Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzaladılar.

# Ərdoğan Pezeşkianla danışdı



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İran Prezidenti Məsud Pezeşkian ilə telefon danışığı aparıb.***

"Unikal" xəbər verir ki, tərəflər Türkiyə-İran münasibətləri və regional məsələləri müzakirə ediblər.

Ərdoğan bildirib ki, Türkiyə İrandakı hadisələri yaxından izləyir, İranın sabitliyinə böyük əhəmiyyət verir, hər hansı xarici müdaxiləyə qarşıdır. O, bölgədə eskalasiyanın qarşısının alınmasının Türkiyənin maraqlarına uyğun olduğunu vurğulayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050056447001109444
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Tramp və Zelenskinin bir saatlıq görüşü oldu

***Ukrayna Prezidenti Volodimir Zelenski ilə ABŞ Prezidenti Donald Tramp arasında Davosda Dünya İqtisadi Forumu çərçivəsində görüş başa tutub.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Prezidenti Aparatının sözçüsü Sergey Nikiforov jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, prezidentlər təkbətək söhbət ediblər. Ümumilikdə görüş bir saatdan bir qədər çox davam edib.

Ukrayna Prezidentinin kommunikasiya məsələləri üzrə müşaviri Dmitri Litvin iki prezidentin görüşünü "yaxşı" kimi qiymətləndirib.

# Sahibə Qafarova NATO Baş katibinin müavini ilə görüşdü

***Yanvarın 22-də Milli Məclisin sədri Sahibə Qafarova NATO Baş katibinin müavini Radmila Şekerinskanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanla NATO arasında 30 ildən artıq müddətdə davam edən əməkdaşlıq vurğulanaraq, Alyansın beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında oynadığı rol yüksək qiymətləndirilib.

Söhbət zamanı, tərəflər arasında mövcud davamlı və məzmunlu siyasi dialoqun əhəmiyyəti vurğulanaraq, bildirilib ki, Prezident İlham Əliyevin NATO mənzil-qərargahına səfərləri, NATO-nun sabiq Baş katibi Yens Stoltenberqin 2024-cü ildə Azərbaycana səfəri, aparılan danışıqlar və müntəzəm təmaslar tərəfdaşlığa yeni dinamika gətirib və bu addımlar siyasi dialoqun intensivliyinin göstəricisi kimi qiymətləndirilib. Azərbaycanın NATO üçün etibarlı və öhdəliklərinə sadiq tərəfdaş olduğu qeyd edilərək, ölkəmizin Alyansın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyəti, regional nəqliyyat-logistika



mərkəzi kimi əhəmiyyəti vurğulanıb.

Görüşdə daha sonra Azərbaycanın Alyansın enerji təhlükəsizliyinə verdiyi töhfə diqqətə çatdırılaraq, bildirilib ki, ölkəmiz hazırda NATO üzvü olan 10 dövlətə və 2 tərəfdaş ölkəyə təbii qaz tədarük edir ki, bu da enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Spiker həmçinin Azərbaycanın Orta Dəhlizdə mühüm tranzit rolunu vurğulayaraq, bunun regionda sabitliyə və əməkdaşlığa mühüm töhfə verdiyini qeyd edib.

Sahibə Qafarova Azərbaycan və Ermənistan arasında sülh prosesinə toxunaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin öz suverenliyini bərpa edərək, bölgədə yeni reallıqlar yaratdığını bildirib. Qeyd olunub ki, məhz Azərbaycan sülh təşəbbüsü ilə çıxış edib, Vaşinqton Sammitindən sonra Ermənistanla əməkdaşlığın irəlilədilməsi üzrə ardıcıl və praktik addımlar atıb.

NATO Baş katibinin müavini Radmila Şekerinska Alyansın Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini və tərəflər arasındakı sıx siyasi dialoqu yüksək qiymətləndirdiyini bildirərək, bu münasibətlərin yeni Tərəfdaşlıq Proqramı çərçivəsində daha da dərinləşəcəyinə əminliyini ifadə edib. O, Azərbaycanın NATO ilə əməkdaşlığa və Alyansın üzv ölkələrinin enerji təhlükəsizliyinin təminin olunması istiqamətində verdiyi mühüm töhfələrə görə təşəkkürünü çatdırıb və tərəfdaşlığın gələcəkdə də uğurla davam edəcəyini vurğulayıb.

Baş katibin müavini Azərbaycan və Ermənistan arasında sülh və münasibətlərin normallaşdırılması üzrə proses ilə bağlı təbriklərini çatdırıb.

Söhbətdə Milli Məclislə NATO Parlament Assambleyası arasında əlaqələrin əhəmiyyəti qeyd olunub, gələcək əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

# MEDİA-dan Prezidentin adından yayılan saxta məlumatla bağlı "Meta"ya çağırış

***"Facebook" sosial şəbəkə platformasındakı bir sıra hesablarda Azərbaycan Prezidentinin adından "deepfake" texnologiyası ilə hazırlanmış, reallığı əks etdirməyən açıqlama yayılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) məlumatında bildirilib.

Qeyd edilib ki, süni intellektin köməyi ilə hazırlanmış, ictimai rəyi çaşdırmağa yönələn bu dezinformasiya nümunəsi vətəndaşların fərdi məlumatla-




rını ələ keçirərək onlara maddi ziyan vurmaq məqsədi daşıyır.

"Son zamanlar oxşar məzmunlu kiberdələduzluq hallarına "Facebook" platformasında tez-tez rast gəlinir. Bununla əlaqədər olaraq "Facebook" platformasının sahibi "Meta" şirkətini zərərli məzmunu aradan qaldırmaq üçün operativ tədbirlər görməyə çağırırıq. Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deepfake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik", - deyə MEDİA-nın məlumatında qeyd olunub.

# Elçin Əmirbəyov Bakı-İrəvan sülh prosesini müzakirə edib

***Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Bakıda səfərdə olan NATO Baş katibinin müavini Radmila Şekerinska ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın NATO-dakı daimi nümayəndəliyi "X" hesabında paylaşım edib.

Görüş zamanı Azərbaycan və Ermənistan arasında sülh prosesi müzakirə edilib.

Tərəflər həmçinin qeyd ediblər ki, 2025-ci ildə Şimali Atlantika Şurası səfirlərinin Azərbaycana ilk səfəri və Prezident İlham Əliyevlə görüşü NATO ilə tərəfdaşlıq tarixində əhəmiyyətli hadisə olub.

"NATO və Azərbaycan arasında qarşılıqlı faydalı tərəfdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri, Azərbaycanın fəal və etibarlı tərəfdaş kimi Şimali Atlantika Alyansı rəhbərliyi altında həyata keçirilən sülhməramlı əməliyyatlara və Avropanın enerji təhlükəsizliyinə verdiyi



töhfə, humanitar minatəmizləmə sahəsində əməkdaşlıq, həmçinin regional təhlükəsizlik və digər məsələlər üzrə ətraflı müzakirə aparılıb", - məlumatda qeyd olunub.

03_27 IYUl-QARA.qxd 1/22/2026 10:57 PM Page 6



# İlham Əliyevlə Tramp arasında mühüm görüş: Sülh məsələsi yenidən müzakirə olundu



***Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxundu. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirdi. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğuladı.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd etdi.

Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunuldu, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edildi. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirildi.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd etdilər.

# Milli Məclisin Səhiyyə komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

***Yanvarın 22-də Milli Məclisin Səhiyyə komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib.***



"Unikal" xəbər verir ki, iclası açan komitə sədri Əhliman Əmiraslanov sessiyanın başlaması münasibəti ilə komitə üzvlərini təbrik edib və onlara növbəti sessiyada uğurlar arzulayıb.

Komitə sədri gündəliyə 2025-ci ilin payız sessiyası ərzində Səhiyyə komitəsində görülmüş işlərin hesabatının, komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsinin, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib. Məlumat verilib ki, 2025-ci ilin payız sessiyası ərzində komitənin 15 iclası keçirilib, ümumilikdə 20 məsələ müzakirə olunub. Ötən sessiya dövründə komitəyə vətəndaşlardan 170 müraciət daxil olub. Bunlardan bir qisminin icrası təmin edilib, digər qismi isə baxılması üçün aidiyyəti orqanlara göndərilib. Komitə sədri bildirib ki, ötən sessiya müddətində seçicilərlə həm Milli Məclisdə, həm də yerlərdə mütəmadi görüşlər keçirilib və onlara zəruri izahatlar verilib. Səhiyyə komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsi barədə məlumat verən Əhliman Əmiraslanov qeyd edib ki, gələn sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələri müzakirə olunacaq və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək. Məsələlərlə bağlı müzakirələrdə komitənin sədr müavini Rəşad Mahmudov, üzvləri İlham Məmmədov, Müşfiq Məmmədli, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva çıxış edərək fikirlərini söyləyiblər, təkliflərini bildiriblər. İclasda komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul hesab edilib, 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiqlənib. Daha sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, qanun layihələrinə edilən dəyişikliklər onkoloji yardımın göstərilməsi sahəsində mövcud məhdudiyyətlərin aradan qaldırılmasını, bu xidmətlərin "Lisensiyalar və icazələr haqqında" qanunun tələblərinə əsasən onkoloji yardım üzrə lisenziyaya malik özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsini nəzərdə tutur. Dəyişikliklər onkoloji xəstələrin həkim və tibb müəssisəsi seçmək hüququnun genişləndirilməsinə və tibbi xidmətlərə çıxış imkanlarının artırılmasına xidmət edəcək. Müzakirələrdə komitənin sədr müavini Rəşad Mahmudov və üzvü Pərvanə Vəliyeva çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər, təkliflərini irəli sürüblər. İclasın sonunda birinci oxunuşda olan qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Tədbirdə Səhiyyə komitəsinin üzvləri Kəmaləddin Qafarov, Anatoliy Rafailov və Milli Məclis Aparatının əməkdaşları iştirak ediblər.

***Anar Kəlbiyev***





# Azərbaycanla Aİ iqtisadi əlaqələrin inkişafını müzakirə etdi

***Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında iqtisadi əlaqələrin inkişafı və mövcud potensialın reallaşdırılması məsələləri müzakirə olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" hesabında paylaşım edib.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Davos İqtisadi Forumunda iştirak çərçivəsində Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos ilə görüş keçirdik.

Görüşdə Azərbaycan-Aİ iqtisadi əməkdaşlığı gündəliyində əsas prioritetləri, o cümlədən ticarət və enerji tərəfdaşlığını, həmçinin nəqliyyat və logistika infrastrukturunun daha da inkişafı istiqamətində görülən tədbirləri vurğuladıq. Eyni zamanda, Azərbaycan-Avropa İttifaqı iqtisadi münasibətlərinin tam potensialının reallaşdırılması imkanları ətrafında fikir mübadiləsi apardıq", - paylaşımda qeyd edilib.

# "Bəzi qanunlar insanlar üçün çətinliklər yaradır" - Deputat

***"Qəbul etdiyimiz qanunlar insanların həyat şəraitini yaxşılaşdırmalı, ölkənin inkişafına xidmət etməlidir. Amma bəzi qanunlar insanlar üçün müəyyən məhdudiyyətlər, çətinliklər yaradır. Bunu da etiraf etməliyik".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Azər Badamov deyib. O bildirib ki, cəmiyyətdə müzakirə olunan mövzulardan biri əhalinin regionlardan paytaxta axını ilə bağlıdır: "Bunun qarşısını necə almaq olar? Bu da cəmiyyətdə müzakirə olunur. Düzdür, paytaxtın əhalisi çoxalır. Bu da tıxaclarla, sosial infrastrukturla bağlı problemlər yaradır. Şəhər çox əhaliyə hesablanmadığından belə problemlərin olması mümkündür. Regionlardan insanların şəhərə axınının qarşısının alınması hamımızı düşündürməli məsələdir".

Deputat qeyd edib ki, kənddə yaşayan insanın fəaliyyəti torpaqdadır: "Kəndlərdə zavodlar, fabriklər tikilmir və həmin kəndlilərə, fermerlərə torpaqda sərbəst fəaliyyəti üçün şərait yaradılmalıdır. Özünün mülkiyyəti olan torpaqda istədiyi məhsulun becərilməsi üçün, istədiyi kimi istifadə edilməsi üçün şərait yaradılmalıdır. ?Amma nə baş verir? Torpaq Məcəlləsində, Cinayət Məcəlləsində edilmiş dəyişikliklərlə kəndlilərə, fermerlərə özlərinin pay torpaqlarında bitmiş kol-kosdan təmizlənməsi qadağan olunub. Əgər bir fermer və yaxud kəndli özünün pay torpağını mülkiyyəti hesab edirsə və onun vergisini verirsə, onun üzərində bitmiş kolkosdan təmizlənməsində də sərbəstlik verilməlidir ki, o torpaqdan səmərəli istifadə edə bilsin".

O qeyd edib ki, fermerlər, kəndlilər özlərinin pay torpaqlarında, mülkiyyətdə olan digər torpaqlarda özünün şəxsi məqsədləri üçün, kommersiya məqsədləri üçün, tikinti məqsədləri üçün ağaclar əkir: "Fermer və ya kəndli öz torpağında, pay torpağında əkdiyi ağaca qulluq edir, xərc qoyur, böyüdür və ağacı kəsmək istəyəndə qanun buna icazə vermir. Yəni əgər fermer və ya kəndli öz torpağında belə bir sərbəstlik əldə etmirsə, təbii ki, bu məhdudiyyətdir və kəndlinin o torpaqdan gəlir götürməsini də çətinləşdirir".

***Anar Kəlbiyev***

03_27 IYUI-QARA.qxd 1/22/2026 10:57 PM Page 7





## YAP Veteranlar Şurasının iclası keçirildi

***Yanvarın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib.***

"Unikal" xəbər verir ki, YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə gündəlikdə duran məsələlər haqqında məlumat verərək Şuranın 2025-ci ildə də öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsi çərçivəsində, müvafiq Tədbirlər Planına uyğun şəkildə davam etdirdiyini vurğulayıb.

Görülən işlərdən bəhs edən Arif Rəhimzadə 2026-cı ilin Tədbirlər Planında nəzərdə tutulan məsələlərə nəzər yetirərək ideoloji işin, o cümlədən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsinin diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova, Şuranın üzvləri Tahir Rzayev, Elbay Qasımzadə, Zərifə Quliyeva, Adilə Abasova, Əli Həsənov, Tahir Quliyev, Vahid Novruzov, Urxan Ələkbərov, Xeyrəddin Qoca, Nazim İsmayılov, Fidumə Hüseynova, Arif Qaraşov və Zahid Xəlilov çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.

YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunları qənaətbəxş qiymətləndirilib. 2026-cı ilin Tədbirlər Planı ilə bağlı müxtəlif təkliflər səsləndirilib və yekunda müvafiq qərar qəbul olunub.

## "Səhiyyə Nazirliyinin üzərinə böyük məsuliyyət düşür" - Komitə sədri

***"Burada Səhiyyə Nazirliyinin üzərinə çox böyük məsuliyyət düşür. Onkoloji xəstələrin müalicəsi spesifikdir. Bu xəstələrin müayinə və əməliyyatı üçün elə özəl klinikalar var ki, bütün avadanlıqları mövcuddur".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında komitə sədri Əhliman Əmiraslanov deyib. Komitə sədri bildirib ki, ancaq orada çalışan mütəxəssis məsələsi var: "Yüksək ixtisaslı onkoloq-mütəxəssis olmadan keyfiyyətli müalicəni həyata keçirmək olmaz. Səhiyyə Nazirliyinin müvafiq orqanları klinikalarda çox ciddi monitorinq aparmalıdırlar. Baxmalıdırlar ki, özəl klinikaların hansında bu xəstələrin müalicəsi üçün imkan var. Xüsusilə kadr potensialı olan özəl tibb müəssisələrinə sertifikat verilməlidir. Onkoloji xəstələrin müalicəsi yalnız cərrahi müalicə deyil. Onkoloji xəstələrin müalicəsinin bir neçə komponenti var".

Qeyd edək ki, Azərbaycanda onkoloji yardım özəl tibb müəssisələrində də həyata keçiriləcək. Bununla bağlı "Onkoloji yardım haqqında" qanuna dəyişiklik təklif olunur.

***Anar Kəlbiyev***

## "Mən də istəyərəm ki, rezidentlər yüksək maaş alsınlar" - Komitə sədri

***"Fəaliyyətə başlayan həkim nə qədər əməkhaqqı alırsa, rezident də o qədər maaş alır. Bununla bağlı qanun var və 2011-ci ildə qəbul edilib".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında komitə sədri Əhliman Əmiraslanov deyib.

"Mən də istəyərəm ki, rezidentlər yüksək maaş alsınlar. Əməkhaqqı məsələsi qanunda öz həllini tapıb. Sığortadan gələn gəlirlərdən rezidentlərə əlavə ödəniş edilməsi məsələsi müzakirə edilə bilər", - deyə komitə sədri bildirib.

# "Növbəti bir il ərzində minimum əməkhaqqı arta bilər"

## Vüqar Bayramov: "Sektoral əməkhaqqı birbaşa hər sektorda əməkhaqqı səviyyəsinə uyğun olaraq minimum əməkhaqqının müəyyənləşdirilməsi anlamına gəlir"

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Əmək Məcəlləsində minimum əməkhaqqı məbləğinə ildə bir dəfədən az olmayaraq yenidən baxılması ilə bağlı dəyişikliyin əhəmiyyətindən, Azərbaycanda sektorlar üzrə minimum əməkhaqqının müəyyənləşməsinin üstünlüklərindən və vahid tarif cədvəlində nə kimi dəyişikliklərin ediləcəyindən danışıb.***

***-Vüqar bəy, Əmək Məcəlləsində minimum əməkhaqqının məbləğinə ildə bir dəfədən az olmayaraq yenidən baxılması ilə bağlı dəyişiklik təklif olunur. Bu dəyişikliyin hansı üstünlüyü olacaq?***

- Əmək Məcəlləsinə təklif edilən dəyişiklik birmənalı şəkildə minimum əməkhaqqının artırılması ilə bağlı dövrülüyü təmin edəcək. Azərbaycanda mütəmadi olaraq minimum əməkhaqqının artırılması ilə bağlı qərarların verilməsini müşahidə edirik. 2025-ci ilin sosial paketi çərçivəsində minimum əməkhaqqının artırılması həyata keçirildi. Yeni dəyişikliklərə əsasən, minimum əməkhaqqı il ərzində ən azı bir dəfə artırılacaq və onun məbləğinə baxılıb dəyişdiriləcək. Təbii ki, bu, minimum əməkhaqqındakı artım tempinin daha da intensivləşməsinə xidmət edəcək. Nəzərə alsaq ki, minimum əməkhaqqı alan vətəndaşlarımız daha çox sosial dəstəyə ehtiyacı olan vətəndaşlarımızdır. O baxımdan məhz belə dövrülüyün təmin edilməsi bu istiqamətdə sosial təminat tədbirlərinin gücləndirilməsinə gətirib çıxaracaq.



***-Məlum olduğu kimi bu il minimum əməkhaqqı artımı olmayıb. Bu dəyişiklik təsdiq edildikdən sonar cari ildə minimum əməkhaqqının artırılması baş verə bilərmi?***

-Qanunvericiliyin tələbinə uyğun olaraq dəyişikliklər qəbul olunduqdan sonra növbəti bir il ərzində minimum əməkhaqqı məbləğinin dəyişdirilməsini müşahidə edə bilərik. Bu qanunvericilik tələbinə çevriləcək. Nəzərə alsaq ki, pensiyanın indeksləşdirilməsi ilə bağlı tələb "Əmək pensiyaları haqqında" qanunda öz əksini tapdığı üçün hər il bu istiqamətdə addımların atılması reallaşır. Ona görə qanun çərçivəsində müəyyənləşdirilən şərtlər qanunun tələbinə uyğun olaraq reallaşır. Bu baxımdan, Əmək Məcəlləsinə təklif edilən dəyişikliklər Milli Məclisdə qəbul olunduqdan və cənab Prezident tərəfindən təsdiqləndikdən sonra il ərzində minimum əməkhaqqının artırılmasını müşahidə edəcəyik .

***- Azərbaycanda sektorlar üzrə minimum əməkhaqqının müəyyənləşməsini təklif edirsiz. Bunun tətbiqi həmin sahələrdə çalışanlar üçün nə kimi üstünlük yaradacaq?***

-Sektoral əməkhaqqı birbaşa hər sektorda əməkhaqqı səviyyəsinə uyğun olaraq minimum əməkhaqqının müəyyənləşdirilməsi anlamına gəlir. Çünki bəzi sektorlarda əməkhaqqı yüksəkdir. Həmin sektorlarda daha yüksək minimum əməkhaqqının müəyyənləşdirilməsi həyata keçirilə bilər. Məsələn, neft və ya maliyyə sektorunu qeyd edə bilərik. Bu sektorlarda orta aylıq əməkhaqqı yüksək olduğuna görə orta aylıq əməkhaqqı konteksindən minimum əməkhaqqı da ölkə üzrə orta minimum əməkhaqqıdan daha yüksək müəyyənləşdirilə bilər. Bu, həmin sektorlarda çalışan vətəndaşlarımızın, xüsusilə aşağı əməkhaqqı alanların maaşlarının artırılması baxımından vacibdir. Hər halda bu istiqamətdə qiymətləndirilmələrin aparılmasına və təhlillərin genişləndirilməsinə ehtiyac var. Hər bir istehsal sahəsi üzrə əməkhaqqı fondunun hesablanması, hər bir istehsal sahəsi üzrə orta aylıq əməkhaqqına uyğun olaraq digər meyarların müəyyənləşdirilməsinə baxıla bilər. Düşünürük ki, bu təklifin qiymətləndirilməsi, bu istiqamətdə addımların atılması məqsədəuyğun olardı.

***-Əmək və sosial siyasət komitəsinin iclasında qeyd olundu ki, vahid tarif cədvəli ilə əlaqədar hökumətdə iş aparılır. Vahid tarif cədvəlinin yeni versiyası təsdiq olunandan sonra nə kimi dəyişikliklərin olması gözlənilir?***

-Vahid tarif cədvəlində dəyişikliklərlə bağlı müzakirələrin aparıldığı qeyd olundu. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev tərəfindən bu məqam qeyd edildi. Bu, daha optimal vahid tarif cədvəlinin hazırlanması və tətbiqi, eyni zamanda güman edirik ki, əsas hədəf bəzi sektorlar və qurumlar arasındakı tarif cədvəlinə uyğun əməkhaqqı fərqinin optimallaşdırılmasına nail olmaqdan ibarətdir.

***Anar Kəlbiyev***

# Fuad Nağıyevin sevimli şirkəti ilə bağlı suallar

## Dövlət Turizm Agentliyini bir ildə 2,5 milyon manat ödədiyi "Vega Travel Management" ilə nə bağlayır?

***Dövlət Turizm Agentliyi Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndələri üçün destinasiya təqdimatı keçirəcək.***

Qurum bununla bağlı satınalma müsabiqəsinə yekun vurub. Müsabiqənin qalibi ”Vega Travel Management” MMC seçilib. Destinasiya təqdimatının keçirilməsi üçün şirkətə 19 470 manat ödəniləcək.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, ”Vega Travel Management” MMC 2 dekabr 2019-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 5000 manatdır. Şirkətin hüquqi ünvanı Bakı şəhəri Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, ev 19, mənzil 19-da yerləşir. MMC-nin qanuni təmsilçisi Rəhimli Əmrah Natiq oğludur.

Diqqətçəkən məqamlardan biri bir dövlət qurumundan il ərzində milyonlarla manatlıq tender qazanan şirkət və onun qanuni təmsilçisi haqqında açıq mənbələrdə heç bir məlumat olmamasıdır.

Başqa bir sual doğuran məqam: turizm sektorunda fəaliyyət göstərən bir şirkətin müasir dövrdə internet resursunun olmaması təəccüblü deyilmi?

Yeri gəlmişkən, “Unikal”ın elə internet üzərindən araşdırması zamanı məlum olub ki, “Vega Travel Management”in fəaliyyəti əsasən gəlmə turizm (incoming), eyni zamanda getmə turizm (outgoing) və aviabilet satışından ibarətdir. İndiki zamanda bu cür fəaliyyətlərin daha çox onlayn həyata keçirildiyini nəzərə aldıqda adıçəkilən şirkətin rəsmi saytının olmamasına izah verməк çətindir.

“Qaynarinfo”nun dövlət satınalmalarının vahid internet portalı üzərindən apardığı araşdırmadan məlum olur ki, ”Vega Travel Management” MMC sifarişləri əsasən Dövlət Turizm Agentliyindən alır. Agentlik təkcə 2025-ci ildə şirkətlə 2 521 634,73 manatlıq satınalma müqaviləsi imzalayıb.

Ortaya çıxan daha bir maraqlı sual isə budur: Dövlət Turizm Agentliyi hansı səbəbdən tenderlər zamanı başqa bir şirkəti ”Vega Travel Managemenet” MMC-yə alternativ görmür? Özü də haqqında danışdığımız şirkətlə bağlı ortada xeyli düşündürücü məqamlar olduğu halda!

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevdir. O, 2018-ci ildən bu vəzifədə çalışır. Fuad Nağıyev ötən ilin martında şiddətli töhmət alması ilə gündəmə gəlib. Həmin vaxt mediada dərc edilən məlumatlara görə, ona şiddətli töhmət verilməsi rəhbərlik etdiyi qurumdan xidməti yazışmaların sızdırılması ilə bağlıdır.

Ümumiyyətlə isə F.Nağıyevin adı keçirdiyi tenderlərdəki şübhəli məqamlar səbəbindən mütəmadi gündəmə gəlir. Məsələn, bir neçə ay öncə Dövlət Turizm Agentliyi tərəfindən Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək “ATM Dubai 2025? turizm sərgisində açar təhvili üsulu ilə sərgi stendinin quraşdırılması işlərinin satın alınması üzrə 10.03.2025-ci ildə başlanılmış açıq tenderə yekun vurulduğu və “Büromax” MMC ilə 185.660,02 manat məbləğində satınalma müqaviləsi bağlanıldığı bildirilmişdi. Yerli KİV həmin vaxt yazırdı ki, Agentlik tərəfindən nəzərdə tutulmuş sərgi stendinin quraşdırılması işlərinə dair keçirilmiş açıq tenderdə ehtimal olunan qiyməti 407.082,30 manat müəyyən edilib. Dövlət satınalmalarının vahid internet portalına yerləşdirilmiş bu məlumatlardan görsəndiyi kimi satınalan təşkilat olaraq Agentliyin müəyyən etdiyi ehtimal qiyməti ilə təchizatçıların təklif edərək qalib olduğu qiymətlər arasında kəskin fərq var.



Qeyd edək ki, “Dövlət Satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda təchizatçıların satınalmadan kənarlaşdırılması müəyyən edilib. Sözügedən Qanunun 35.1.8. maddəsinə görə təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyasının sorğusu əsasında təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda təchizatçı müsabiqədən kənarlaşdırılmaldır.

Amma göründüyü kimi Dövlət Turizm Agentliyi açıq tender müsabiqəsində ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən dəfələrlə aşağı qiymət təqdim etmiş “Büromax” ilə satınalma müqaviləsi bağlayıb ki, bu da “Dövlət Satınalmaları haqqında” Qanunun tələblərinin pozulması deməkdir.

Onu da deyək ki, Fuad Nağıyevin rəhbərlik etdiyi qurum bu günədək keçirilən tenderlərlə bağlı mediada yer alan tənqidlərə, iradlara və ya suallara hər hansı münasibət bildirməyib. Dövlət Turizm Agentliyi sözügedən məsələdə nəyə görə bir qayda olaraq susmağa üstünlük verir...

***Sənan Mirzə***

# Kamran Əsədov və Gündüz Abbasovun növbəti məhkəmə prosesi başladı

***Qəbul imtahanlarında qanunsuz texniki vasitələrdən istifadə halları ilə bağlı cinayət işi üzrə təqsirləndirilən Kamran Əsədov və onunla birlikdə təqsirləndirilən Gündüz Abbasovun növbəti məhkəmə prosesi başlayıb.***



”Unikal”ın məlumatına görə, məhkəmə prosesi Hakim Elçin Məmmədovun sədirliyi ilə keçirilib. Məhkəmədə tanınmış təhsil eksperti Kamran Əsədov, DİM nümayəndələri və şahidlər də iştirak edir.

Qeyd edəki ki, ittiham aktına görə, K.Əsədov və G.Abbasov cinayət əlaqəsinə girərək qanunsuz texniki vasitələri ümumilikdə 15 abituriyentin üzərinə quraşdırmaqla imtahanlarda onlara kömək ediblər. Belə ki, gizli kamera, səsötürücü funksiyalı “vip smart” telefon, nano qulaqlıq, mifi cihazları və digər qurğular əvvəlcədən bir-biri ilə əlaqələndirilib və istifadəyə yararlılığı yoxlanılıb. Daha sonra həmin avadanlıqlar hazır vəziyyətdə Gəncə və Bakı şəhərlərində keçirilən buraxılış və ali məktəblərə qəbul imtahanlarında asanlıqla nəticə əldə etmək istəyən müxtəlif şəxslərə verilib. Bütün bunların müqabilində təqsirləndirilən şəxslər müştərilərindən müxtəlif məbləğlərdə pul vəsaiti alaraq öz aralarında bölüblər. Kamran Əsədovla Gündüz Abbasova bu əməllərinə görə Cinayət Məcəlləsinin 302.3-cü (gizli informasiya əldə etmək üçün nəzərdə tutulmuş texniki vasitələrin qanunsuz satılması və ya satış məqsədilə əldə edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham elan edilib. Hər iki maddə üzrə 3 ilədək həbs cəzası nəzərdə tutulur.

# Sahil Babayev sabiq bankiri direktor təyin etdi

***Maliyyə Nazirliyinin Maliyyə Elm-Tədris Mərkəzinə yeni direktor təyin edilib.***

“Unikal” Qaynarinfo-ya istinadla xəbər verir ki, nazir Sahil Babayevin əmri ilə Emin Şahin oğlu Aslanov sözügedən vəzifəyə təyin olunub. Digər əmrlə Elm-Tədris Mərkəzinin hazırkı direktoru Nəsirov Fuad Ramiz oğlu vəzifəsindən azad edilib.

Qeyd edək ki, Emin Aslanov uzun illər ləğv edilən Muğan Bankın ”Həyat” filialının müdiri olub. O, 2023-cü ildə elm və təhsil naziri Emin Əmrullayevin əmri ilə Qərbi Kaspi Universitetində ”Mühasibat Uçotu” və ”Maliyyə” ixtisasları üzrə Dövlət Attestasiya Komissiyasının sədri təyin edilmişdi.

1982-ci ildə anadan olan Emin Aslanov Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən, 2018-ci ildə iqtisad üzrə fəlsəfə doktoru elmi adını alıb.

# İlk dəfə xüsusi məktəbdə peşə təmayüllü sinif təşkil edildi

***Ölkə üzrə ilk dəfə Bakı şəhəri 11 nömrəli xüsusi ümumtəhsil məktəbində peşə təmayüllü sinif təşkil edilib.***

Bu barədə ”Unikal”a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, 2025-2026-cı tədris ilindən etibarən yaradılan sinifin təşkili üçün xüsusi işçi qrupu formalaşdırılıb, peşə ixtisası müəyyən edilib və tədris proqramı hazırlanıb. Tədris prosesinin effektiv təşkili məqsədilə məktəbdə xüsusi emalatxana yaradılıb və zəruri maddi-texniki baza ilə təmin edilib. Bildirilib ki, peşə təmayüllü sinif sağlamlıq imkanları məhdud olan 8 şagirdin təhsil aldığı 10-cu sinif üzrə komplektləşdirilib. Sinifdə şagirdlərə tikişçi ixtisası üzrə bilik və bacarıqlar öyrədilir.

Peşə sinfinin fəaliyyəti ilə tanışlıq zamanı dərslər və praktiki məşğələlər müşahidə edilib, şagirdlərin bacarıqları nümayiş etdirilib, tədris planı və proqramların icra vəziyyətinə baxış keçirilib. Tədbirdə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu da iştirak edib. O bildirib ki, məktəbi bitirən şagirdlərin akademik göstəriciləri ilə yanaşı, özünəxidmət vərdişləri, məişət və ev təsərrüfatı sahəsində bəlli səriştələrinin formalaşması vacibdir.

Qeyd edək ki, pilot layihənin icrası xüsusi təhsilə ehtiyacı olan şagirdlərin bacarıqlarının inkişaf etdirilməsinə, onların əmək bazarına hazırlıq səviyyəsinin yüksəldilməsinə xidmət edir.

## TƏBİB rəhbəri: "Azərbaycanda qrip virusunun yayılmasında artım var"



***Azərbaycanda hazırda qrip virusunun yayılmasında artım müşahidə olunur.***

Bunu TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov jurnalistlərin suallarını cavablandırarkən deyib.

Onun sözlərinə görə, qrip virusu ştammı daim dəyişir:

"Qripdən ən gözəl müdafiə üsulu peyvənd olunmaqdır. Hazırda TƏBİB tabeli tibb müəssisələrində qriplə əlaqəli müraciətlər çoxdur. Amma onu da xüsusi vurğulamaq lazımdır ki, xəstəxanalarımızda bu günə qədər qrip səbəbindən səhhəti ağırlaşan pasiyent olmayıb".

## Azərbaycan SPECA İqtisadi Forumunda təmsil olunub

***Azərbaycan Türkmənistanın paytaxtı Aşqabadda BMT-nin Mərkəzi Asiya ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) çərçivəsində keçirilmiş "Beynəlxalq Sülh və Etimad İli: Dayanıqlı İnkişaf naminə regional qarşılıqlı əlaqəlilik" mövzusunda SPECA İqtisadi Forumunda təmsil olunub.***



"Unikal" bu barədə İqtisadiyyat Nazirliyinə istinadən xəbər verir. Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Mammetqulı Astanaqulovun sədrliyi ilə keçirilən açılış sessiyasında BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) və BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katiblərinin videoformatda salamlama çıxışları səsləndirilib.

Forumda ölkəmizi təmsil edən iqtisadiyyat nazirinin müavini Rövnaq Abdullayev çıxışında SPECA İqtisadi Forumunun regionda sülh və etimada əsaslanan iqtisadi əməkdaşlığın, dayanıqlı inkişafın, qarşılıqlı əlaqəliliyin təşviqi baxımından əhəmiyyətini vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft-qaz sektorunun inkişafı, investisiya və biznes mühitinin yaxşılaşdırılması, eləcə də rəqəmsallaşma istiqamətində ardıcıl islahatlar həyata keçirilir. Süni intellektin iqtisadiyyatda tətbiqi üzrə yol xəritəsi hazırlanır, beynəlxalq yükdaşımalar üçün Rəqəmsal Logistika Platforması artıq istifadəyə verilib.

Nazir müavini Azərbaycanın SPECA çərçivəsində, o cümlədən Orta Dəhliz və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə regional nəqliyyat və ticarət əlaqələrinin gücləndirilməsinə, dayanıqlı inkişaf məqsədlərinə töhfə verdiyini diqqətə çatdırıb və əməkdaşlığın bundan sonra da dərinləşdiriləcəyinə əminliyini ifadə edib.

Tədbirdə SPECA-ya üzv olan digər dövlətlərin hökumət nümayəndələri - Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Abdurahmon Abdurahmonzoda, Qazaxıstanın milli iqtisadiyyat nazirinin müavini Asan Darbayev, Qırğızıstanın iqtisadiyyat və ticarət nazirinin müavini Mederbek Tumanov, Türkmənistanın maliyyə və iqtisadiyyat nazirinin müavini Babaniyaz Yalakov, Özbəkistanın investisiyalar, sənaye və ticarət nazirinin müavini Xurram Teşabayev iştirak ediblər.

21-22 yanvarda Forum çərçivəsində Transxəzər regionunda və ondan kənarda enerji əlaqəliliyi, Avropa-Asiya nəqliyyat əlaqələrinin səmərəliliyinin artırılması və rəqəmsal ticarət-iqtisadi dəhlizlərin inkişafı mövzularında panel sessiyalar təşkil olunub.

# Tikinti oliqarxlarının daha bir talanı...

## Mənzil sahəsini düzgün yazmırlar, böyük pulları haqsız şəkildə ciblərinə qoyurlar - Vətəndaşlar belə aldadılır!

***Azərbaycanda mənzil sahəsinin hesablanması məsələsi alıcılar üçün ciddi problemə çevrilib. Bəzi MTK-lar müqavilədə mənzilin sahəsini bir şəkildə göstərir, amma "Çıxarış"da və faktiki ölçüdə fərqlilik olur. Bu, alıcıların haqlı narazılığına səbəb olur və mənzil alqı-satqısında etibarı azaldır.***

Ekspertlər deyir ki, sahə ölçüləri dəqiq və şəffaf olmalıdır ki, alıcılar haqsız vəziyyətlə üzləşməsin. Mənzil sahəsi alıcının faktiki istifadə edə biləcəyi ölçü əsasında hesablanmalıdır, yoxsa müqavilədə göstərilən rəqəm əsas götürülməlidir? Bu proses necə tənizmlənməlidir?

Bu barədə "AzPolitika"ya danışan əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirib ki, ölkədə 2,500-ə yaxın hündürmərtəbəli bina inşa edilib və satılıb. "2018-ci ildə Mənzil Məcəlləsində dəyişikliklər edildi və alqı-satqı əməliyyatlarının notarial qaydada həyata keçirilməsi tənzimləndi. Lakin tikinti şirkətləri bu qaydaya əməl etmirlər. Onlar mənzil sahəsini hesablayarkən çöl divarlarını tam, ara divarları və qonşu divarları isə yarım hissə kimi göstərirlər. Eyvan sahəsi isə tam şəkildə hesablanır," - ekspert vurğulayıb.



E.Azadov qeyd edib ki, Azərbaycan Respublikasının Tikinti və Şəhərsalma Qanunvericiliyinin 59.3-cü maddəsinə əsasən mənzil sahəsi hesablanarkən çöl və iç divarlar, havalandırma şaxtası daxil edilmir. Eyvan sahəsi isə 3-də 1 və ya 50 faiz əmsalla nəzərə alınır: sağ və sol divar varsa 50%, çıxıntılı və ya bir divar varsa 3-də 1 əmsal tətbiq olunur.

"Tikinti şirkətləri memarlıq hissəsində layihəni əmsallara uyğun çəkir, lakin satış komandaları bu hesablamalara əməl etmədən mənzilləri təqdim edirlər. Bu baxımdan, sakinlər mənzili təhvil alarkən və ya təmir prosesi zamanı sahənin layihədə göstərilənlə uyğun gəlmədiyini görürlər," - deyə ekspert əlavə edib.

Ekspert vurğulayıb ki, yaşayış kompleksi tikərkən tikinti şirkətləri böyük gəlir əldə edir, lakin qanunvericilikdə nəzərdə tutulsa da, mənzil sahəsinin düzgün hesablanmasına əməl etmirlər.

Nəticədə isə anormal vəziyyət yaranır: müqavilədə göstərilən rəqəmlərlə çıxarışda göstərilən rəqəmlər eyni olmur. Məsələn, vətəndaş yeni tikilidən mənzil alarkən 100 kvadrat metrin pulunu MTK-ya ödəyir. Çıxarış aldıqda isə sənəddə qanuni şəkildə 85 kvadratmetr qeyd olunur. Belə vəziyyətdə isə həm qanun pozulur, həm də vətəndaşlar ciddi məbləğdə maddi vəsait itirirlər. Vətəndaş gələcəkdə həmin mənzili satarkən məcbur çıxarışa uyğun 85 kvadratmetrə görə satır.

Azərbaycan Respublikası "Şəhərsalma və tikinti Məcəlləsi"nin 59.3 cü bəndində məlumat verilir ki, yaşayış binalarında mənzillərin ümumi sahəsi bayır və ara divarların, habelə məhəccərlərin yerləşdiyi sahələr nəzərə alınmadan hesablanır. Sobanın, buxarının yerləşdiyi sahə də mənzilin ümumi sahəsinə aid edilmir. Əmlak Məsələləri Dövlət Xidmətinin çıxarış vermək üçün ümumi qaydaları var, bu qaydalara əsasən mənzildə daxili sahələr ölçülür və vətəndaşa ona uyğun çıxarış verilir.

Tikinti obyektlərində sahələrin ölçülməsi qaydası Dövlət Şəhərsalma və Arxitektura komitəsinin kollegiyasının 4 dekabr 2012-ci il tarixli 7 nömrəli qərarı ilə tənzimlənir. Həmin qərara əsasən, mənzilin sahəsi dedikdə, iç divarların bir üzündən qarşıdakı divarın üzünə qədər olan məsafə nəzərə alınmaqla hesablanır. İstifadə olunmayan yerlər kvadrata vurulmamalıdır. Qaydaların 3.8-ci bəndinə əsasən eyvan və terrasların sahələri, şüşəbənd hesablanarkən müvafiq olaraq azaltma əmsalları tətbiq edilir. Belə ki, eyvan və terrasların sahələri 0,3, şüşəbənd və lociyalar 0,5 azalma əmsallarına vurulmaqla mənzilin ümumi sahəsinə daxil edilir. Yəni eyvanın sahəsi 10 kvadratmetrdirsə, o demək deyil ki, müqaviləyə 10 kvadratmetr yazılmalıdır. Çünki onlar azaldılmış əmsallarla hesablanır.

Rəsmi qurumların sözügedən məsələ ilə bağlı qaydaları olsa da, MTK-lar bu qaydalara əməl etmirlər. Mütəxəssislər deyirlər ki, sözügdən problemin əsas yaranma səbəbi vahid standartın olmamasıdır. Bəs illərdir bu problem davam etsə də, vahid standart niyə qəbul edilmir?

İki il öncə problemi araşdıran APA-nın əməkdaşı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə sözügedən məsələ ilə bağlı müraciət etmiş, bu müraciətə cavab olaraq isə qurumdan bildirilmişdi ki, qurum tərəfindən ərazilərin planlaşdırma layihələri razılaşdırılır, tikinti və istismara icazələr verilir. Tikinti şirkətləri ilə vətəndaşlar arasında alqı-satqı işlərinin aparılmasına nəzarət isə Komitənin səlahiyyətləri xaricindədir.

Lakin həmin vaxt əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə demişdi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi hesablama apararkən yaxşı olardı ki, ümumi sahəni hesablasın. Ekspert həmçinin bildirmişdi ki, Vergilər Xidməti də sahibkardan ümumi sahəyə görə vergi tələb etməlidir. MTK-lar ümumi sahəylə bərabər, tikintialtı sahəyə görə də vergi ödəyirlər. Buna görə də həmin vəsaiti vətəndaşlardan çıxarırlar. Onun sözlərinə görə, vahid müqavilə forması olsa, problem həllini tapar.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə bildirmişdi ki, əslində binanın satışını MTK deyil, ASAN xidmət və ya hansısa dövlət qurumu aparmalıdır. Hər iki ekspert də bildirir ki, yeni tikililərin elə ilk başda Ədliyyə Nazirliyi tərəfindən müvafiq reyestri də həyata keçirilməlidir. Vətəndaşın MTK ilə bağlanan müqaviləsində mənzil sahəsi olduğundan çox göstərilibsə, yəni əslində hər kvadrat metrə görə ödənilən pul müqabilində mənzil təqdim edilmirsə, aidiyyəti qurumlara müraciət edilməlidir.

Beləliklə, görünən odur ki, məlum məsələdə vahid standartın olmaması sadə vətəndaşlara külli miqdarda ziyan vurur. MTK-lar, tikinti oliqarxları isə yenə öz ampulalarındadırlar: qayda-qanunlardakı boşluqdan istifadə edərək ciblərini doldurmağa çalışırlar. Və təəssüf ki, aidiyyəti qurumlar nədənsə problemə biganə münasibət göstərirlər. Bu da belə təsəvvür formalaşdırır ki, həmin qurumlar vətəndaşdan çox, oliqarxlardan yanadırlar...

***Sənan Mirzə***

03_27 IYUl-QARA.qxd 1/22/2026 10:57 PM Page 10



# Sabiq deputatın məşhur şirkətinin başı üzərində “qara buludlar”

## Bacısı oğlundan Nəriman Əliyevə ağır ittihamlar - “Ştutqart”ı mənimsəyib?

***Avtomobil ehtiyat hissələrinin satışını həyata keçirən məşhur ”Ştutqart” mağazalar şəbəkəsi ilə bağlı qalmaqal yaranıb. Belə ki, keçmiş deputat Nəriman Əliyevin bu mağazalar şəbəkəsini qanunsuz yollarla ələ keçirdiyi iddia edilir. Həmin iddianı səsləndirən isə kənar şəxs deyil, elə keçmiş deputatın öz bacısı oğlu Pərviz Abdullayevdir.***

Pərviz Abdullayev mövzu ilə bağlı açıqlamasında bildirib ki, uzun illərdir biznes fəaliyyəti ilə məşğul olur: ”Yuyucu tozların istehsalını və satışını həyata keçirən ”Emruz” markasını biz yaratmışıq. Daha sonra isə ”Ştutqart” mağazalar şəbəkəsini qurduq. Hətta mən bu işə görə Dubaya köçərək bir müddət orada yaşadım. Yəni, bilənlər bilir ki, Nəriman Əliyev bu mağazalar şəbəkəsinin sahibi deyil. O, sadəcə bu biznesi əlimizdən alıb” - o, “Qaynarinfo”ya deyib.

Pərviz Abdullayevin sözlərinə görə, Nəriman Əliyev onun dayısı olmaqla yanaşı, atası ilə də çox yaxın dost olub: ”Onun yüksəlişinə görə atam az əziyyət çəkməyib. Bu baxımdan biz onu mağazalar şəbəkəsinə ortaq etmişdik. Nəriman Əliyev də bundan istifadə edərək arxasında duran məmurların dəstəyindən yararlanaraq mağazalar şəbəkəsini əlimizdən alıb. ”Ştutqart”ın qurulmasında onun zərrə qədər əməyi olmayıb. Təsəvvür edin, mağazanın adını da mən qoymuşam. Nəriman Əliyev onu himayə edən məmurlara güvənərək belə edib. Lakin biz bu mağazanı geri almaqda israrlıyıq. Bütün qanuni və hüquqi vasitələrdən istifadə edərək məqsədimizə çatacağıq”.

Pərviz Abdullayevin iddiaları ilə bağlı Nəriman Əliyevin mövqeyini öyrənmək mümkün olmayıb. Keçmiş deputatın köməkçisi deyib ki, Nəriman Əliyev ölkədə deyil, 10 gündən sonra qayıdacaq.

Onu da deyək ki, yerli media adı çəkilən sabiq deputatı ləğv olunmuş MTN-in keçmiş rəhbəri Eldar Mahmudova yaxın şəxs kimi təqdim edir. İddialara görə, N.Əliyevin sonradan mandatsız qalması bununla bağlıdır.

Xatırladaq ki, o, 70 saylı Masallı şəhər dairəsindən Milli Məclisin IV (2010-2015) və V çağırış (2015-2020) deputatı olub. 58 yaşlı N.Əliyev 1991-1998-ci illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur. 1999-cu ildən «Nur-M”Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru vəzifəsində çalışıb. Onun tərcümeyi halındakı maraqlı detallardan biri Cənubi Rusiya Humanitar İnstitutu adlı ali məktəbin hüquq fakültəsini bitirməsidir. Lakin qəribədir ki, nə səbəbdənsə, N.Əliyev sonradan “Odlar Yurdu”Universitetinin hüquq fakültəsini bitirməyə də ehtiyac duyub.

Sabiq deputatın adı sonuncu dəfə üç il öncə qalmaqallı şəkildə gündəmə gəlmişdi. Onun Qarabağ qazisi də daxil olmaqla 64 nəfərin maaşını verməkdən boyun qaçırması barədə məlumat yayılmışdı. Bildirilmişdi ki, işçilər “Ştutqart” MMC-də iş şəraitindən və maaş səviyyəsindən narazı qalaraq könüllü olaraq işdən çıxıblar. Amma onların sözlərinə görə, Nəriman Əliyev onların qalıq maaşlarını ödəmək istəmir.

Elə həmin vaxt yerli mediada şikayətçilərə istinadla sabiq deputata məxsus mülklərin, torpaq sahələrinin, evlərin, obyektlərin və avtomobillərin (bir hissəsinin) siyahısı da yayılmışdı:

1. Bakı şəhəri, Məmməd Araz (keçmiş Teymur Əliyev) küçəsində 5 mərtəbədən ibarət yaşayış evi (Faktiki yaşadığı ünvan)

2. Bakı şəhəri, Məmməd Araz (keçmiş Teymur Əliyev) küçəsində 2 mərtəbədən ibarət avtomobil dayanacağı və yaşayış evi.



3. Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsində 46 sot boş torpaq sahəsi,3 mərtəbəli anbar və 3 mərtəbəli ofis. Bu anbar və ofislər “Ştutqart” şirkətinin mərkəzi anbarı kimi fəaliyyət göstərir.

4. Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsində 8 hektar torpaq sahəsi. Bu ərazi Nəriman Əliyevin dayısı oğlu Azər Abbasovun adına rəsmiləşdirilib. Ərazi şərikli olduğundan 25 faizi Nəriman Əliyevin payına düşür.

5. Bakı şəhəri, Babək prospekti, 2224-cü məhəllə, 37c ünvanında 4690.4 kv.m-lik 3 mərtəbədən ibarət qeyri-yaşayış binası. Burada əlavə bir zirzəmi və bir mansard mövcuddur. Həmçinin obyektin arxa tərəfində boş sahə və digər tikililər var. Hazırda bura “Ştutqart Mərkəz” mağazası kimi fəaliyyət göstərir.

6. Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 18 ünvanında 264.8 kv-lıq qeyri-yaşayış binası. Hazırda bura “Ştutqart Yasamal” filialı kimi fəaliyyət göstərir.

7. Bakı şəhəri, Biləcəri qəsəbəsi, R.İsmayılov küçəsində bir zirzəmi daxil olmaqla 2 mərtəbədən ibarət qeyri-yaşayış sahəsi. Bu obyektin bir hissəsi icarəyə verilib. Digər hissəsi isə “Ştutqart Biləcəri” filialı kimi fəaliyyət göstərir.

8. Bakı şəhəri, Bilgəh qəsəbəsində 60 sot ərazisi olmaqla 4 mərtəbədən ibarət bağ evi - villa

9. Sumqayıt şəhəri, Bakı küçəsi 39a ünvanında, 426.9 kv-lıq 2 mərtəbədən ibarət qeyri-yaşayış binası. Hazırda bura “Ştutqart Sumqayıt” filialı kimi fəaliyyət göstərir.

10. Masallı şəhəri, Heydər Əliyev prospekti, 35 ünvanında “Masallı Konserv” ASC-nin yerləşdiyi 1.21711 ha boş torpaq ərazisi, 11691.7 kv.m - də tikilmiş qeyri-yaşayış binası

11. Masallı şəhəri, Xətai küçəsində 2914.3 kv-lıq “Masallı şirniyyat zavodu” adı altında inşa edilmiş bina və 1.43 ha boş ərazi.

12. Masallı şəhəri, Bakı prospektində (keçmiş Digah yaşayış massivi) xüsusi mülkiyyətində olan 15825.9 kv-lik “Masallı Bazarı” adı altında fəaliyyət göstərən bazar.

13. Masallı şəhəri, Heydər Əliyev prospekti 64 ünvanında 1484.9 kv-lıq 3 mərtəbədə qeyri-yaşayış binası. Hazırda bura “Ştutqart Masallı” filialı kimi fəaliyyət göstərir.

14. Masallı şəhəri, Heydər Əliyev prospekti (Ştutqart Masallı filialı ilə üzbəüz) 5 mərtəbədən ibarət qeyri-yaşayış sahəsi (bu obyekt Nəriman Əliyevlə digər şəxsin şərikli obyektidir)

15. Masallı şəhəri, Heydər Əliyev prospekti (Ştutqart Masallı filialı ilə üzbəüz) 3 hektar sahəsində inşa edilmiş anbarlar (hazırda icarəyə verilib)

16. Masallı şəhərində mövcud olan “Daş Bazarı”

17. Masallı şəhəri, Heydər Əliyev prospekti, 35 ünvanında “Masallı Konserv”lə üzbəüz köhnə sement bazası (bu obyekt şəriklidir)

18. Masallı şəhəri, İstisu istirahət mərkəzində 5 hektara yaxın ərazi (bu ərazi şəriklidir və şəriklər ərazidə öz istirahətləri üçün müxtəlif tikililər inşa ediblər)

19. 10 AA 133 dövlət nömrə nişanlı “Mercedes S Class” avtomobili

20. 90 AA 490 dövlət nömrə nişanlı “Lexsus 460” avtomobili

21. 10 AA 633 dövlət nömrə nişanlı “Range Rover” avtomobili

22. 10 VE 444 nömrə nişanlı “Toyota Camry” markalı avtomobil

23. “Ştutqart” MMC-nin anbarlarında saxlanılan, dəyəri 40 milyon manat olan avtomobil ehtiyat hissələri qalığı

Nəriman Əliyev həmin vaxt bu deyilənlərlə bağlı sorğulara cavab verməkdən imtina etmiş, hətta onunla əlaqə saxlayıb sual verməyə qadağa qoymuşdu. İndi isə bacısı oğlunun ittihamları qarşısında keçmiş deputatın ölkədə olmadığı bildirilir. Onun Azərbaycana döndükdən sonra bacısı oğluna cavab verib-verməyəcəyini zaman göstərəcək.

***Toğrul Əliyev***



## Onkoloji xəstələr özəl klinikalarda müalicə ala biləcəklər

***Özəl tibb müəssisələri tərəfindən onkoloji yardımın həyata keçirilməsi təklif edilir.***

”Unikal” xəbər verir ki, bununla bağlı “Onkoloji yardım haqqında” qanuna dəyişiklik edilir.

Qeyd edilib ki, layihənin qəbul olunması nəticəsində ixtisaslaşdırılmış özəl tibb müəssisələri ilə yanaşı, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə əsasən yalnız onkoloji yardım üzrə lisenziyaya malik özəl tibb müəssisələri tərəfindən xidmət həyata keçiriləcək.

Bu isə vətəndaşların öz iradəsinə əsasən istənilən tibb müəsisəsində tibbi xidmət almasına səbəb olmaqla Azərbaycan vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin öz mülahizələrinə əsasən müstəqil surətdə öz müalicə həkimlərini seçmək və müvafiq tibb müəssisəsində müalicə almaq hüququ təmin ediləcək.

***Anar Kəlbiyev***

## Uşaq qidasında çirkləndirici aşkarlandı, satışa buraxılmadı

***İsveçrə mənşəli uşaq qidasında çirkləndirici aşkarlanıb.***

”Unikal” xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Bildirilib ki, İsveçrədən ölkəmizə idxal edilən “Hochdorf Swiss Nutrition Ltd” müəssisəsinin istehsalı olan “Swissneo 1” əmtəə nişanlı (09.10.2025-09.10.2027-ci il istehsal və son istifadə tarixli) uşaq qidasında “Sereulid” çirkləndiricisinin aşkarlanması ilə bağlı Avropa İttifaqının “Qida və Yem Məhsullarına dair Çevik Xəbərdarlıq Sistemi” (RASFF) vasitəsilə Qida Təhlükəsizliyi Agentliyinə bildiriş daxil olub.

Bildiriş əsasında dərhal araşdırmalara başlanılıb və məhsulun həmin partiyasının dövriyyəyə buraxılmasının qarşısı alınıb.

## Cib bıçaqlarının satışı qadağan olunsun - Təklif

”Gənclər və yeniyetmələr arasında bıçaqlanma hadisələri baş verir. Statistikalar göstərir ki, hadisələr daha çox cibdə gəzdirilən, qatlanan bıçaqlarla törədilir. Bu bıçaqların satışının, istifadəsinin qadağan olunmasını təklif edərdim”.

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Gənclər və idman komitəsinin iclasında deputat Müşfiq Cəfərov deyib. Onun sözlərinə görə, müəyyən kompüter oyunları var ki, uşaqların və yeniyetmələrin psixologiyasına təsir edir.

”Onların qadağan olunması böyük əhəmiyyət kəsb edir. Bu qadağa uşaq və yeniyetmələr arasında ölüm hadisələrinin qarşısını almış olar”, - deyə deputat bildirib.

***Anar Kəlbiyev***



## Ceyhun Bayramov Radmila Şekerinskanı qəbul etdi

***22 yanvar 2026-cı il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov NATO Baş katibinin müavini Radmila Şekerinskanı qəbul edib.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, görüş zamanı Azərbaycan ilə NATO arasında tərəfdaşlıq çərçivəsində mövcud əməkdaşlıq gündəliyi və perspektivləri, tərəfdaşlıq mexanizmləri çərçivəsində görülən işlər, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycanla NATO arasında əməkdaşlığın əhəmiyyətini qeyd edərək, mövcud tərəfdaşlıq çərçivəsində həyata keçirilən dialoq və qarşılıqlı fəaliyyətin regional təhlükəsizliyə müsbət töhfə verdiyini bildiriblər. Azərbaycanla NATO arasında minasızlaşdırma, kiber təhlükəsizlik və digər sahələrdə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Ölkəmizin NATO-nun sülhə dəstək üzrə əməliyyat və missiyalarında iştirak təcrübəsi, Əfqanıstanda proseslərə yaxından dəstəyi, müdafiə sahəsində islahatlar, uyarlılığın təmin olunması sahəsində görülən işlər təqdir olunub. Ötən ilin noyabr ayında NATO üzv ölkələrinin daimi nümayəndələrindən ibarət missiyanın ölkəmizə səfəri məmnunluqla xatırlanıb.

Görüş zamanı, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi, regionda dayanıqlı və qalıcı sülhün təmin olunması istiqamətində həyata keçirilən diplomatik səylər və etimad-quruculuğu tədbirləri, 8 avqust Vaşinqton sammiti çərçivəsində əldə olunmuş razılaşmalar və sülh perspektivləri, habelə regional nəqliyyat və bağlantı layihələri barədə məlumat verilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi apardılar.

## "Bəzi universitetlər bazarın tələblərinə uyğun gəlmir" - Deputat



***"Bəzi universitetlərdə bəzi ixtisaslarımız bazarın tələblərinə uyğun gəlmir. Texnologiyalar, ətraf mühit dəyişir. Yeni qlobal tendensiyalar var. Biz nə qədər sürətlə bu tendensiyalara uyğunlaşa bilirik və nə qədər sürətlə yeni ixtisaslar aça bilirik?"***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Elm və təhsil komitəsinin bu gün keçirilən iclasında deputat Fariz İsmayılzadə deyib.

"Bəlkə hansısa sahələrdə universitetlərə daha çox muxtariyyət vermək olar ki, onlar daha çevik formada ixtisaslar aça bilsinlər. Düşünürəm ki, bu məsələni Elm və Təhsil Nazirliyi ilə birgə müzakirə etməliyik", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

# On milyonlarla manatı talayan sabiq məmurlara hərrac şoku

## Səlim Müslümovun, Vilyam Hacıyevin, Vidadi Zeynalovun əmlaklarını kim(lər) alacaq?

***Azərbaycanda bir sıra sabiq yüksək vəzifəli şəxslərin müsadirə edilmiş əmlakları satışa çıxarılıb. Bu sırada Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq Aparat rəhbəri olmuş Vidadi Zeynalovdan keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovadək bir zamanların güclü şəkildə oliqarxlaşmış məmurları var. Onların hərraca çıxarılan varidatları isə bahalı mənzillərdən lüks avtomobillərə qədər müxtəlif daşınan, yaxud daşınmayan əmlakları əhatə edir.***

"Musavat.com"un yazdığına görə, V.Zeynalovun hərracda satılması nəzərdə tutulan əmlakların ümumi dəyəri 10 milyonlarla manatla ölçülür. O, 2015-ci ilin noyabr ayında "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin sabiq rəhbəri Beytulla Hüseynov və digərləri ilə birlikdə həbs edilib və onların əmlakının üzərinə həbs qoyulub. İttihamda Vidadi Zeynalovun qulluq mövqeyindən sui-istifadə edərək nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə əlbir olaraq 73 milyon 590 min manat pul vəsaitini mənimsədiyi göstərilirdi. 2017-ci ilin iyul ayında Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Zeynalov 13 il azadlıqdan məhrum edilib. Daha sonra Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə onun cəzası 4 ilə endirilib. 2019-cu ildə Vidadi Zeynalov azadlığa buraxılıb.

Məhkəmə istintaqı dövründə Vidadi Zeynalovun ümumilikdə 67 əmlakına həbs qoyulub. Ümumi dəyəri 43 milyon manatdan çox olan 67 əmlak Vidadi Zeynalovun, onun övladlarının, həyat yoldaşının, bacısının və digər yaxınlarının adına olub.

Üzərinə həbs qoyulmuş əmlaklar 43 milyon 489 min 537 manat qiymətləndirilib. Real bazar dəyəri isə bundan iki dəfə artıqdır.

Milyonlarla manat mənimsəmə ittihamı ilə məhkum edilmiş sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovla İmişlinin keçmiş icra başçısı Vilyam Hacıyevin də müsadirə edilmiş əmlakları satışa çıxarılır. "Qafqazinfo"nun məlumatına görə, əmlakların ümumi qiyməti 650 min manat təşkil edir.

Səlim Müslümova məxsus:

- Binəqədi rayonu, Akademik Ziya Bünyadov prospektində mənzil-qiyməti 350 min manat;
- Eyni prospektdə başqa mənzil-qiyməti 140 min manat.

Vilyam Hacıyevin həyat yoldaşı Cülyetta İbrahimova və oğlu Məhəmməd Hacıyevin adına rəsmiləşdirilmiş 4 minik avtomobili:

- "Bentley Continental GT" - 65 min manat;
- "Range Rover" - 56 min manat;
- "BMW 740i" - 23 min manat;
- "BMW X5" - 16 min manat.

56 min manat qiymət qoyulan "Range Rover"i Məhəmməd Hacıyev sürürdü. Həmin vaxt avtomobilin qiyməti 100 min manatdan artıq idi.

Qeyd edək ki, həm Səlim Müslümov, həm də Vilyam Hacıyev Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən cinayət məsuliyyətinə cəlb edilmişdilər. Dövlətə dəymiş ziyanı tam ödədiyindən Müslümova 11 il şərti, Hacıyevə isə 8 il 6 ay real həbs cəzası verilib. Yuxarıdakılardan əlavə, hər iki məhkumun bir neçə əmlakı da dövlətə dəymiş ziyanın əvəzi olaraq müsadirə olunub.

Dövlətin on milyonlarla manatını talayan sabiq məmurların əmlakları ilə bağlı hərrac xəbərinin ardından cəmiyyətdə və mediada bir mövzu yenidən aktuallaşıb. Söhbət korrupsiyaya görə cinayət məsuliyyətinə cəlb olunmuş yüksək vəzifəli məmurların həbsdə az qalmasından gedir. Yazının əvvəlində bəhs etdiyimiz Vidadi Zeynalov, yaxud da şərti cəzaya məhkum edilən Səlim Müslümov nümunəsində olduğu kimi! Vətəndaşlar haqlı olaraq sual edirlər: uzun müddət dövlətin yüksək imtiyazlarından yararlanıb, qulluq mövqeyindən istifadə edərək ictimai sərvətləri talamış cinayətkarlara bu güzəştin səbəbi nədir? Onların korrupsiya yolu ilə sahibləndikləri varidatın bir hissəsini müsadirə etmək, yalnız istintaqa məlum olan dövlət zərərini ödətməkmi? Ekspertlərin fikrincə, cinayətkar məmurlara səbəbindən asılı olmayaraq edilən güzəşt mənfi tendensiya yaradır. Hazırda vəzifədə olanlardan da kimlərsə düşünür ki, onsuz da tutulsa belə, çox həbsdə qalmayacaq, korrupsiya hesabına yığdıqlarının bir hissəsini itirsə belə, yerdə qalanı ilə ömür boyu şad-xürrəm yaşayacaq.

Mütəxəssislərin fikrincə, cəmiyyətdə narazılıqla qarşılanan bu məqam aidiyyatı qurumları da narahat etməlidir. Cinayət törətmiş yüksək vəzifəli şəxslərə nadir istisnalarla yüngül cəza vermək, qısa müddətdə azadlığa çıxmasına şərait yaratmaq qanunlara, ədalət prinsipinə, dövlətin, cəmiyyətinin mənafelərinə ziddir.

Bu arada maraq doğuran suallardan biri hərraca çıxarılacaq əmlakları kimlərin alacağıdır. İctimaiyyətdə söz-söhbət dolaşır ki, həmin hərraclar əslində şərti xarakter daşıyır, bir növ, hüquqi prosedura xidmət edir, əslində isə satışa çıxarılan əmlakların yeni sahibləri də elə onların köhnə sahibləri olacaq. Gununsesi.infonun özəl mənbələrdən əldə etdiyi bir məlumat sözügedən iddiaları müəyyən qədər təsdiqləyir. Belə ki, həmin məlumata görə, Vidadi Zeynalovun Bakıda hərraca çıxarılan əmlakı onun sərvətinin tam siyahısı deyil. Məsələ burasındadır ki, sabiq aparat rəhbəri cinayət yoluyla əldə etdiyi pulun əsas hissəsini Türkiyədə və Birləşmiş Ərəb Əmirliklərində əmlaka çevirib: "Bu gün İstanbulda, Dubayda çoxsaylı əmlakları var. Hansı ki bu əmlaklar Azərbaycanda hərraca çıxarılan sərvətindən qat-qat baha dəyərləndirilir. Bakıda hərraca çıxarılan əmlakı da Vidadi Zeynalovun özü yenidən alacaq".



Bu, həqiqətən baş versə, təəccüblənərikmi? Qətiyyən. Dövlətin 73 milyon manatını talayıb sonra da 13 il həbs cəzası aldığı halda cəmi 4 il sonra azadlığa çıxan Vidadi müəllimdən hər şey gözləmək olar... Elə digər "şanlı" korrupsionerlərimizdən də...

***Sənan Mirzə***

03_27 IYUl-QARA.qxd 1/22/2026 10:59 PM Page 4



# Diplomatik jest, yoxsa güclü ilə ehtiyatlı rəftar?

***Ermənistan prezidenti Vaaqn Xaçaturyanın Davosda keçirilən Dünya İqtisadi Forumundakı çıxışı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dəfələrlə təşəkkür etməsi müzakirə mövzusuna çevrilib.***

Ermənistan prezidentinin Davosdakı çıxışını İlham Əliyevə yönəlik diplomatik jest kimi qiymətləndirmək mümkündür, amma bunu birbaşa siyasi dönüş kimi yox, daha çox hesablanmış mesajlaşma kimi oxumaq daha realdır.

Əlbəttə ki, hazırkı kontekst daha çox regional balansın dəyişməsi ilə bağlıdır, burada Azərbaycanın mövqeləri xeyli möhkəmlənib və Ermənistan yeni status-kvoya uyğunlaşmağa çalışır.

Davos kimi qlobal platformalar rəsmi danışıqlardan çox simvolik siqnalların verildiyi məkanlardır. Burada işlədilən dil, vurğular və hətta görüşlərin formatı klassik diplomatiyadan fərqli olaraq daha çevik və çoxqatlı olur. Ermənistan tərəfinin belə bir tribunadan verdiyi mesajlar həm Bakıya, həm Qərb auditoriyasına, həm də yeri gəlsə, Rusiyaya ünvanlanır. Lakin buna ehtiyatlı yanaşmaq lazımdır.



Çünki Ermənistan daxilində siyasi balanslar zəifdir və Davosda deyilənlər daxili auditoriya üçün eyni formada təkrarlanmır. Praktik addımlar (kommunikasiyaların açılması, sülh müqaviləsinin detalları) hələ də danışıqlar masasında qalıb. Üstəlik, Davos mesajları çox vaxt konstruktiv tərəf kimi görünmək üçün Qərbə yönəlik imic siyasəti daşıyır. Avropa İttifaqı yolunu tutan İrəvan üçün bu görüntü olduqca vacibdir.

Rəsmi İrəvanın praktikadan çox sözlərlə oynadığını bir misalla izah etmək mümkündür: Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumunda “Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi” mövzusunda panel iclasında TRIPP layihəsindən danışıb.

”TRIPP layihəsi ilə biz Asiyadan Xəzər dənizi üzərindən, Azərbaycan, Ermənistan, Azərbaycanın bir hissəsi olan Naxçıvan, Türkiyə və Gürcüstandan keçən mövcud dəhlizlərə əlavə olaraq yeni bir nəqliyyat dəhlizi yaradacağıq. Beləliklə, marşrutlar nə qədər çox olarsa, istehlakçılar, təchizatçılar, tranzit ölkələr üçün bir o qədər yaxşıdır. Beləliklə, biz bir ölkə olaraq həmişə regional gündəliyimizə diqqət yetiririk”, - deyə dövlət başçısı vurğulayıb. Azərbaycan tərəfi haqqında danışdığı məsələləri reallaşdırır, yeni praktiki addımlar atır. Necə deyərlər, sözümüz imzamızdır.

Məlum olduğu kimi, Azərbaycan TRIPP-in birinci mərhələsini tamamlayır və Naxçıvanda ikinci mərhələ üzərində işə başlayıb. Bu arada, İrəvan amerikalılarla ”Tramp marşrutu” ilə bağlı danışıqlar aparır. Maraqlıdır ki, bu fonda İrəvan olduqca qəribə açıqlamalar verərək ”suyu bulandırır”. Bir tərəfdən Rusiyanın layihədə iştirak etməyəcəyi deyilir, digər tərəfdən isə Nikol Paşinyan Rusiyadan Ermənistan ərazisindən Azərbaycanın Naxçıvan sərhədinə və Türkiyə ilə sərhədə qədər dəmir yolunu bərpa etməsini tələb edir. Bütün bunların praktikada necə baş verəcəyi hələlik məlum deyil. Nəticədə qarşı tərəfdə hələlik potensial görünmür.




Bakının mövqeyi isə dəyişməz olaraq qalır: Söz yox, sənəd və əməl lazımdır!

Bu mənada, Davosdakı çıxış da Azərbaycana qarşı nə düşmənçilik, nə də strateji yaxınlaşma jestidir. Daha çox, Azərbaycanın regionda yaratdığı yeni reallığı qəbul etdiyini dolayı yolla etiraf edən diplomatik tonlama kimi görünür.

2026-cı il Azərbaycan və Ermənistan üçün sülh prosesi kontekstində həlledici mərhələdir. Ermənistanda keçiriləcək parlament seçkiləri bu prosesin mərkəzində olmalıdır. Çünki bununla Bakı və İrəvan tarixi sülh müqaviləsini imzalayıb dövlətlərarası münasibətlər qura biləcəyini müəyyən edəcəklər. Əks halda, rəsmi Bakı qarşısında yenə Köçəryan, Sarkisyan kimilərin şüuru ilə qarşılaşa bilər. Revanşist müxalifət Paşinyanın qələbə qazanmasının qarşısını almaq üçün əlindən gələni edəcək. Bu düşüncə ilə nəinki sülh imzalamaq, hətta danışıqlar masasına oturmaq belə mümkün deyil. 30 illik nəticəsiz qalan, tozlanmış danışıqlar masası buna nümunədir.

Baş nazir Nikol Paşinyanın ”Vətəndaş Müqaviləsi” partiyası seçkilərdə qalib gələrsə, bu, sülh prosesi üçün müsbət nəticə hesab edilə bilər. Çox güman ki, Baş nazir Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını ölkənin əsas qanunundan çıxararaq konstitusiyaya düzəliş etmək üçün referendum keçirəcək. Referendum uğurlu olarsa, iki ölkənin sülh müqaviləsi imzalaması üçün heç bir səbəb qalmayacaq.

Seçkilərdə qalib gəlmək üçün isə Paşinyan ciddi işlər görməli olacaq. Və burada Ermənistan-Avropa Birliyi məsələsi ilə bərabər, Azərbaycan faktoru da ön plana çıxır. Çünki son zamanlar Bakının hazırkı Ermənistan hakimiyyətini dəstəklədiyini görürük. Ermənistan Prezidentinin Davosdakı ”həssas” çıxışının arxasında Azərbaycanın daha çox dəstəyini almaq istəyinin durduğunu da desək, yanılmarıq.

Başqa sözlə, 2026-cı ildə Ermənistan və Azərbaycan üçün ən azı üç əhəmiyyətli hadisə gözlənilir ki, bu da müəyyən dərəcədə nəinki iki ölkənin, həmçinin bütün regionun gələcəyini müəyyən edəcək. Təbii ki, sülh müqaviləsinin imzalanması, Azərbaycan və Ermənistan arasında müxtəlif sahələrdə, xüsusən də ticarətdə əməkdaşlığı ideal şəkildə stimullaşdıracaq. Buna uyğun olaraq, sülh müqaviləsinin imzalanmasından sonra vacib bir vəzifə iki ölkənin ictimaiyyəti arasında münasibətlərin yaxşılaşdırılması üçün bir çərçivə hazırlamaq olacaq.

Əsl cavab isə Davos müstəvisində deyil, növbəti konkret addımlarla verilməlidir, çünki artıq Bakı boş vədlərə inanmır.

***Ağarza Elçinoğlu***



# 1 ildə korrupsiya cinayəti törədən 18 nəfər “iş” başında yaxalanıb

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2025-ci il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.***

“Unikal” xəbər verir ki, baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilən müşavirədə müavin - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov məruzə edib.

Bildirilib ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 11671 müraciətinə baxılıb.

Əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən “161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilmiş, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülüb.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması istiqamətində prokuror təsir tədbirlərinin tətbiqindən də müvafiq dövr ərzində istifadə edilmiş, yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 133 təqdimat göndərilib. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilib.

Bununla yanaşı, müvafiq dövr ərzində Baş İdarədə 910 vətəndaşın qəbul edilməsi təmin edilib.

Qeyd edilən müddət ərzində Baş İdarədə 315 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılıb, 267 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb, 48 material, o cümlədən 14-ü üzrə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul olunub və digər prokuror təsir tədbirləri tətbiq edilib.

Əməliyyat qurumları tərəfindən 114 cinayət işi başlanılıb, keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 18 şəxs cinayət başında yaxalanıb.

Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 174 şəxs barəsində 104 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılıb, qalanları isə hazırda məhkəmə baxışındadır.

Hesabat ili ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 35 milyon 391 min 465 manat məbləğində maddi ziyandan 11 milyon 634 min 316 manatının ödənilməsi təmin olunub.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 27 milyon 439 min 745 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunub.

03_27 IYUI-QARA.qxd 1/22/2026 10:57 PM Page 11



# Vəzifəli şəxslərin qohumlarının tenderlərdə iştirakı qadağan olunacaq



***Ermənistanda vəzifəli şəxslərin qohumları ilə əlaqəli şirkətlər dövlət satınalmalarında və tenderlərdə iştirak etməkdən məhrum ediləcək.***

“Unikal” xəbər verir ki, qanuna düzəliş layihəsi hökumət tərəfindən təsdiqlənib.

Avropa ölkələrinin təcrübəsi əsasında hazırlanmış qanun layihəsi dövlət satınalmalarında maraqların toqquşmasının qarşısını almağı hədəfləyir.

Üç səviyyəli məhdudiyyətlər sistemi təklif olunur:

- Ölkənin ali rəhbərliyi (Baş nazir, Prezident, Parlamentin sədri, Baş nazirin müavinləri və Maliyyə naziri) ilə əlaqəli şirkətlər dövlət satınalmalarında iştirak etməkdən tamamilə məhrum ediləcək.
- Nazirlər, Baş prokuror, istintaq orqanlarının rəhbərləri və ictimai liderlərlə əlaqəli şirkətlər öz departamentləri və tabeliyindəki təşkilatlar üçün tenderlərdə iştirak etməkdən məhrum ediləcəklər.
- Müstəqil dövlət qurumlarının (Mərkəzi Bank, Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyası, Rəqabət Komissiyası və Ombudsman) idarə olunması ilə əlaqəli şirkətlər üçün məhdudiyyətlər yalnız bu qurumlar tərəfindən satınalmalara şamil ediləcək.

Şirkət maraqların toqquşmasını gizlədirsə, müqavilə geriyə doğru ləğv ediləcək və cərimə müqavilə məbləğinin 20%-ni təşkil edəcək. Məhdudiyyətlər hazırda parlament üzvlərinə şamil edilmir, lakin məsələ parlamentdə müzakirə oluna bilər.

Hökumət dəyişikliklərin 1 yanvar 2027-ci il tarixində qüvvəyə minməsini planlaşdırır.

# Azərbaycanda yalnız bu şəxslər aptek işlədə biləcək - Yeni qərar



***Əczaçılıq fəaliyyəti ilə məşğul olmanın hüquqi əsaslarında dəyişiklik edilib.***

”Unikal”ın məlumatına görə, bununla bağlı səhiyyə naziri Teymur Musayev müvafiq Qərar imzalayıb.

“Dərman vasitələrinin topdansatışına dair tələblər”

Mövcud qanunvericiliyə görə, fasiləsiz olaraq ixtisasları üzrə 5 ildən çox işləməmiş əczaçılar müvafiq tədris müəssisələrində hazırlıq keçdikdən sonra əczaçılıq fəaliyyəti ilə məşğul ola bilərlər.

Qərara əsasən, azı 5 il müddətində fasiləsiz olaraq ixtisasları üzrə işləməmiş əczaçılar, o cümlədən əczaçılıq ixtisası üzrə ali və ya orta ixtisas təhsili olan və təhsil müəssisəsini bitirdikdən sonra azı beş il müddətində fasiləsiz olaraq ixtisasları üzrə işləməmiş əczaçılar Səhiyyə Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində hazırlıq keçdikdən və “Əhalinin sağlamlığının qorunması haqqında” Qanuna uyğun olaraq sertifikasiya imtahanından keçdikdən sonra əczaçılıq fəaliyyəti ilə məşğul ola biləcəklər.

“Aptek təşkilatlarına dair tələblər və aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları”

Mövcud qanunvericiliyə görə, aptekdən həkim resepti ilə buraxılan dərman vasitələrinin satışı “Əhalinin sağlamlığının qorunması haqqında” Qanuna uyğun olaraq sertifikasiyadan keçmiş əczaçılıq təhsilinə malik mütəxəssis tərəfindən, reseptsiz buraxılan dərman vasitələrinin və digər tibb təyinatlı malların satışı ali və ya orta əczaçılıq təhsilinə malik mütəxəssislər tərəfindən həyata keçirilir.

Qərara əsasən, aptekdən reseptlə və ya reseptsiz buraxılan dərman vasitələrinin, o cümlədən digər tibb təyinatlı malların satışı “Əhalinin sağlamlığının qorunması haqqında” Qanunun tələblərinə uyğun olaraq sertifikasiya şəhadətnaməsi qüvvədə olan əczaçılıq ixtisası üzrə ali və ya orta ixtisas təhsili almış əczaçılar tərəfindən həyata keçiriləcək.

Məlumat üçün bildirək ki, qərar yanvarın 6-da qəbul edilib, yanvarın 14-də Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib, yanvarın 15-də qüvvəyə minib.

# İqbal Məmmədovun biznesinə növbəti zərbə

## Keçmiş deputatın "Lerik Broyler"i fəaliyyətini dayandırdı - Böyük çöküşə daha bir addım!

***Milli Məclisin VI çağırış deputatı olmuş İqbal Məmmədova məxsus ”Lerik Broyler” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) fəaliyyətini dayandırıb.***

Belə ki, o, deputat mandatını itirdikdən sonra onun digər biznes layihələri ilə yanaşı, ”Lerik Broyler” MMC-də də ciddi maliyyə problemləri yaranıb.

Şirkət bir neçə aydır fəaliyyət göstərmir. Bildirilir ki, işçilər uzun müddətdir əmək haqlarını ala bilmirlər.

“Qaynarinfo”nun xəbərində deyilir ki, aparılan araşdırmaya əsasən, MMC-nin Dövlət Vergi Xidmətinin 6 saylı Ərazi Vergilər Baş İdarəsinə 255 340,07 manat vergi borcu mövcuddur.

Məlumata görə, İqbal Məmmədovun qardaşı oğlu Orxan Nərimanlı direktor vəzifəsindən azad edilib. Bir neçə ay əvvəl ”Lerik Broyler” MMC-nin direktoru vəzifəsinə Emil Şiriyev təyin olunub.

Məsələ ilə bağlı ”Lerik Broyler” MMC-nin Emin adlı nümayəndəsi ilə əlaqə saxlanılıb. O, şirkətin İqbal Məmmədovla əlaqəsi barədə suala belə reaksiya verib: ”Sizə nə dəxli var? Şirkət İqbal Məmmədovdan çıxıb, ya çıxmayıb. İşçilərə əmək haqqı verilməməsi ilə bağlı məsələnin də ağsaqqala heç bir aidiyyatı yoxdur. İqbal Məmmədovun qardaşı oğlu Orxan Nərimanlının da ona bağlılığı yoxdur. Axmaq-axmaq danışırsız. 8 aydır ”Lerik Broyler” işləmir. Siz şirkətin niyə işləməməsi barədə maraqlanın”.



Xatırladaq ki, İqbal Məmmədov 2024-cü il sentyabrın 1-də keçirilən parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyasının siyahısından kənarda saxlanılıb. Bununla da o, deputat mandatını itirib.

Deputatlığı müddətində isə İqbal Məmmədovun adı müxtəlif qalmaqallarda hallanıb. Onunla bağlı ən qalmaqallı xəbər ləğv edilən Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər Baş İdarəsinin əməkdaşlarının ”Relax”da operativ vergi nəzarəti tədbirləri keçirmək istəyərkən deputatın oğlu Mirhəmid, qardaşı oğlu Orxan, bacısı oğlu Pərviz və onların dostları tərəfindən döyülmələri olub.

Deputatın 2017-ci ildə ”Lerik Broyler” MMC-sində baş verən partlayış nəticəsində Vüqar Abbasov adlı şəxs ölüb, xeyli sayda insan yaralanıb.

İqbal Məmmədov bir milyon manat dəyəri olan mənzillərinin əlindən alınması, həmçinin müxtəlif fotolarla şantaj edilməsi ilə də gündəmə gəlib.

Hazırda İqbal Məmmədovun qeyri-rəsmi sahibi olduğu şirkətlərin dövlətə milyonlarla vergi borcu var. Eks-deputatın qardaşı və qohumlarının rəhbərlik etdiyi şirkətlərin vergi borcu bi ara hətta 10 milyon manatı belə aşmışdı.

Məmmədovun borcu ən yüksək olan şirkəti ”Kaspi-Yıldız” MMC sayılır. Bu MMC 7 sentyabr 2005-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamı kapitalı 10 manat olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nizami rayonu, Özbəkistan küçəsi, ev 24-də yerləşir.

”Kaspi-Yıldız” MMC-nin qanuni təmsilçisi Əliyev Camaləddin Məzahir oğludur. Şirkətin əsl sahibi isə keçmiş deputat İqbal Məmmədovdur. O, 2010-cu ilə qədər şirkətə rəhbərlik edib. Həmin il deputat seçildikdən sonra isə ”Kaspi-Yıldız”ın rəhbərliyi keçmiş deputatın qardaşı Çingiz Məmmədova keçib.

”Kaspi-Yıldız” MMC ilə eyni hüquqi ünvanda ”Kaspi-Yıldız” Azərbaycan-Türkiyə Müştərək Müəssisəsi də yerləşir. Bu şirkət də İqbal Məmmədova məxsusdur.

”Kaspi-Yıldız” Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin hazırkı borcunun nə qədər olduğu bilinmir. Bircə o bəllidir ki, illərdir İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə 10 milyon manata yaxın borcu olan İqbal Məmmədov 2024-cü il parlament seçkilərinin ardınca həmin borcdan 8 milyon 123 min 438 manat 13 qəpik ödəmişdi. O vaxt yayılan məlumatda deyilirdi ki, bu qədər böyük məbləğdə borc boşuna ortaya çıxmayıb. Belə ki,”Kaspi Yıldız” şirkətində külli miqdarda vergidən yayınma halları qeydə alınıb. İqbal Məmmədov deputat seçilmədiyinə görə cinayət məsuliyyətindən azad edilməsi üçün 9 milyon 393 min 819 manat 13 qəpik vergi borcunun böyük hissəsini ödəməli olub.

Eks-deputata məxsus “Lerik-Broyler”in öz fəaliyyətini dayandırması barədə xəbər isə onu göstərir ki, Məmmədovun şəxsi biznesində böhran nəinki səngiməyib, hətta getdikcə dərinləşməkdədir. Görünür, vaxtilə üzləşdiyi maliyyə problemlərini deputat mandatının verdiyi imtiyazlardan faydalanaraq yoluna qoymağı bacaran İqbal müəllim bu imkandan məhrum olunca daha da çıxılmaz vəziyyətdə qalıb.

Yeri gəlmişkən, bütün bu xəbərlərin fonunda sabiq millət vəkilinə məxsus məşhur “Relax” istirahət mərkəzinin hər an əl dəyişdirə biləcəyinə dair bir müddətdir mediada yayılan məlumatlar da artıq təəccüb doğurmurg

***Toğrul Əliyev***

**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Sülh və insanlıq əleyhinə cinayətlər dünya ictimaiyyətinə çatdırılmalıdır

## Şamil Sabiroğlu: "Tariximizin qan yaddaşı olan bu soyqrım Xaçaturyanın öz dövlətinə təhvil verilməsi ilə unudulmur"

***Azərbaycan 44 günlük müharibədə zəfər çalaraq 30 il işğal altında qalan torpaqlarını azad etsə də, qələbə 1-ci Qarabağ müharibəsi dövründə Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətləri unutdurmur. Bədnam qonşularımız tərəfindən törədilən əməllər nə tarixdən silinəcək, nədə ki, yaddaşımızdan. Tariximizin qan yaddaşı olan Xocalı Soyqırımı kimig***

Bu günlərdə Xocalının Meşəli kəndində azərbaycanlılara qarşı soyqırım törətməkdə ittiham olunan Vaqif Xaçaturyanla bərabər dörd erməni məhbusun Ermənistana təhvil verilməsi cəmiyyətdə müəyyən müzakirələrə yol açıb. Xocalı cəlladının cəzasını tam çəkməmiş öz dövlətinə təhvil verilməsindən hiddətlənənlər də var, buna müəyyən mənada haqq qazandıranlar da.

Bu əsnada "Unikal" qəzeti İllərdir "Xocalıya ədalət" şüarı altında haqq səsimizi dünyaya çatdırmaqda böyük əməyi olan "Xocalı Soyqırımını Tanıtma " İctimai birliyinin sədri Şamil Sabiroğlu ilə həmsöhbət olub.

Xocalı soyqrımı qurbanlarının yaxınları ilə daim əlaqədə olan Ş. Sabiroğlu Xaçaturyanın Ermənistana təhvil verilməsinin heç də Xocalı Soyqrımını unutdurmayacağını söyləyir. Müsahibimiz deyir ki, tariximizin qan yaddaşı olan bu soyqrım Xaçaturyanın öz dövlətinə təhvil verilməsi ilə unudulmur. Hər kəs imkanı daxilində Xocalı Soyrımını, bu soyqrımda insanların başına açılan müsibətləri, cinayətləri dünyaya çatdırmalıdır. Onun sözlərinə görə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işləri davam etdirilməlidir.

"Azərbaycan dövləti 44 günlük müharibədə öz gücünü ortaya qoydu. Mən özüm 1-ci Qarabağ müharibəsinin iştirakçısıyam. Azərbaycan dövlətinin, onun prezidentinin siyasətini dəstəkləyirəm. Prezidentimizin daim yanındayam. Bildiyiniz kimi, Xocalı cəlladı olan Xaçaturyan həbs olunanda ona törətdiyi cinayətlərə görə çox az cəza verilmişdi. 15 il azadlıqdan məhrumetmə onun törətdiyi bir cinayətin cəzası deyildi. Meşəli kəndində Xaçaturyanın rəhbərliyi ilə elə cinayətlər törədilib ki, o cinayətlərdən danışanda adamın damarında qanı donur. Onun Meşəlidə törətdiyi qətliam nəticəsində 14 yaşında Vidadi Abdullayev məktəbdə yanıb ölmüşdü. Mən həmişə onun anasına təsəlli verirdim ki, biz o torpaqlara qayıdacağıq. İş elə gətirdi ki, biz nəinki o torpaqlara qayıtdıq, bu qətliamları törədənləri də əli qandallı soyqrım qurbanlarının yaxınlarının qarşısına çıxartdıq. Bu həm də tarixi bir ədalət idi. Düzdür, belə qatı cinayətkarların azadlığa çıxması insanı incidir. Dövlətin işinə qarışmaq olmaz. Yəqin ki, bu siyasi baxımdan verilmiş qərardır. Bizim bilmədiyimiz nüanslar var. Amma insanların erməni cəlladlarının azad etmələrini qınaması da başadüşülməlidir. Biz yenə də prezidentin yanında olmalıyıq. Belə bir ifadə var- "Düşməni bağışlamaq olar, amma onu asandan sonra". Xaçaturyanın başçılıq etdiyi erməni cəlladları nə qocalara acımayıb nə də uşaqlara. Körpə uşaqları anasının döşündən alıb gözü qarşısında süngüyə keçiriblər. Qız-gəlinlərimizin namusuna toxunublar. Amma bunun siyasi cəhətdən verilmiş bir qərar olduğunu düşünürəm. Biz bu qərara rəğmən xalq olaraq yenə bir yumruq kimi olmalı, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlərin,

habelə müharibə cinayətlərinin, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına davam etməliyik", deyə Şamil Sabiroğlu vurğulayıb.



Qeyd edək ki, qanunsuz erməni silahlı birləşmələrinin tərkibində 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Vaqif Xaçaturyanın məhkəməsi zamanı çoxsaylı şahid ifadələri dinlənilib.

Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Vaqif Xaçaturyanın məhkəməsində zərərçəkmiş Zahid Nurməmmədov deyib ki, bacısının uşaqları bu hadisələrdə qətlə yetirilib. İş üzrə zərərçəkmiş şəxs qismində tanınaraq dindirilən İbrahim Nurməmmədov ifadəsində bildirib ki, o, keçmiş Əsgəran rayonunun Meşəli kəndində ailəsi ilə birlikdə yaşayıb.

Onun ailəsi atası Hüseyn, anası Pakizə, həyat yoldaşı Çiçək, oğlu Tural, qardaşı Mikayıl və Mikayılın həyat yoldaşı Gülçöhrədən ibarət olub.

"Silahlı dəstənin üzvlərindən olan Vaqif Xaçaturyan və Armais Sarkisyan səsgücləndirici vasitəsilə camaatı təslim olmağa çağırırdılar. Onlar 5 saat dayanmadan kəndi atəşə tutdular. Ailəmin 9 üzvünü itirdim. Onlar öldürüldükdən sonra yandırılmışdılar. Xocalı rayonunda yerləşən özünümüdafiə dəstəsinin hərbi qulluqçuları və Kosalar kəndinin polis və özünümüdafiə dəstəsinin üzvləri, həmçinin xüsusi təyinatlı polis dəstəsinin üzvləri Qaraqav kəndi istiqamətindən Meşəli kəndinə köməyə gəlmiş və erməni silahlıları kəndi tərk etməyə başlamışdılar. Erməni silahlıları kəndi tərk etdikdən sonra meyitləri yığa bilmişik. Yaralıları Ağdam Rayon Mərkəzi Xəstəxanasına apardıq, şəhid olmuş kənd sakinlərini isə səhəri gün, 24 dekabr 1991-ci il tarixdə Laçın rayonunun Nurəddin və Fərraş kəndlərində dəfn etdik", - o vurğulayıb.

Zərərçəkmiş Şakir Qonaqov qardaşı Musanın Meşəli hadisələrində qətlə yetirildiyini bildirib: "Qardaşım döyüşlərə könüllü qatılmışdı. Biz onu kənd qəbiristanlığında dəfn etdik. Qardaşımın cəsədində 20-dən çox güllə izi var idi".

Barat Novruzov isə ifadəsində qeyd edib ki, ailəsi Meşəli kəndinə hücumda öldürülüb: "Sonradan onların meyitlərinin yandırıldığının şahidi oldum. Vaqif Xaçaturyan məni avtomatın qundağı ilə döydü. Daha sonra əlimi kəmərlə bağladılar və qulağımı kəsmək istədilər".

Digər zərərçəkmiş Kamal Rəcəbov məhkəmədə söyləyib ki, Meşəli kəndinə qəfil hücum olub: "Evdə yatmışdım. Gördüm ki, güllə yağış kimi yağır və ermənilər tərəfindən kəndə od vurulub. Onların atəşi nəticəsində sağ budumdan güllə yarası aldım. Qışın günündə ailəmdən uzaq qaldım. Güllə atışından 2 metrliyimdə olan ailə üzvlərimi təxliyə etməyə imkan yox idi. Yoldaşımı və 2 azyaşlı körpəmi itirdim. Onların qadınlara da yazığı gəlmədi. Gözümün qabağında 2 və 17 yaşında olan qızı vəhşicəsinə qətlə yetirdilər".

Eldar Salmanov ifadəsində Vaqif Xaçaturyanı şəxsən tanıdığını deyib: "Məlum hadisə vaxtı 16 yaşım var idi. Meşəli kəndinə 2 mindən artıq qoşun hücum etdi. Bunların məqsədi insanları daha çox əsir götürmək idi. Xaçaturyan və onun dəstəsi qonşumuzun evinə od vurub, onların çığırtısına oynayırdılar. İçərisində döşləri kəsilmiş qadınlar olan 28 meyit gördüm. Mən də ana və atamı itirdim. Onlara azərbaycanlıların qulaqlarını kəsərək gətirmələrinə görə yaxşı pul verirdilər". Bu şəxslər Xaçaturyanın insanlıq əleyhinə törətdiyi əməllərin canlı şahidləridir. Xaçaturyan öz ölkəsinə təhvil verilsə də, nə Azərbaycan xalqı onun törətdiyi cinayətləri unudacaq, nədəki gələcək nəsil!

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Azərbaycan-Türkiyə ali təhsil əməkdaşlığında yeni addım

***Elm və təhsil naziri Emin Əmrullayevin Türkiyəyə rəsmi səfəri çərçivəsində Ankarada Qarabağ Universiteti ilə İstanbul Texniki Universiteti (İTÜ) arasında elm və təhsil sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvarın iştirak etdiyi mərasimdə həmin sənədi Qarabağ Universitetinin rektoru Şahin Bayramov və İstanbul Texniki Universitetinin rektoru Hasan Mandal imzalayıblar.

YÖK sədri Erol Özvar çıxışında diqqəti iki qardaş ölkəni birləşdirən tarixi bağlara çəkib, ali təhsil sahəsində əməkdaşlığın Türkiyə və Azərbaycanın ortaq gələcəyinə töhfə olduğunu diqqətə çatdırıb. Qarabağ Universitetini bütün region üçün yeni bilik və innovasiya mərkəzi kimi qiymətləndirən Erol Özvar Türkiyənin ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan İstanbul Texniki Universitetinin geniş təcrübəsinin Qarabağ Universitetinin daha da inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəyinə əminliyini ifadə edib.

Elm və təhsil naziri Emin Əmrullayev öz növbəsində Qarabağ Universiteti ilə İstanbul Texniki Universiteti arasında imzalanan sənədi iki qardaş ölkənin elm və təhsil sahələrində əməkdaşlığının yeni platforması adlandırıb. Nazir Qarabağ Universitetinin ölkəmiz və bütün Türk dünyası üçün əhəmiyyətini vurğulayıb və İTÜ ilə əməkdaşlığın yeni yaradılan universitetin mövqelərinin möhkəmlənməsinə töhfə verəcəyinə inamını qeyd edib.

Qeyd edək ki, Qarabağ Universiteti və İstanbul Texniki Universiteti arasında imzalanan Anlaşma Memorandumuna əsasən, bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələrin, pedaqoji heyət və/və ya tədqiqatçı alimlərin qarşılıqlı mübadiləsi, birgə tədqiqat fəaliyyəti üzrə əməkdaşlıq, elmi materiallar və informasiya mübadiləsi, qarşılıqlı maraq doğuran sahələrdə ikili diplom proqramlarının hazırlanması, Qarabağ Universitetinin Mühəndislik fakültəsi üçün tədris və tədqiqat laboratoriyalarının birgə layihələndirməsi və idarə edilməsi nəzərdə tutulur.

03_27 IYUI-QARA.qxd 1/22/2026 10:57 PM Page 13



# Torpaq sahəsini özbaşına tutanları bu cəza gözləyir



***Mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsinin digər üsullarla özbaşına tutulması Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayət məsuliyyəti yaradır və Məcəllənin 188.1-ci maddəsində bu cür hallara görə səkkiz min manatdan on min manatadək cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması, yaxud iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bu barədə Əmlak Məsələləri üzrə Dövlət Xidməti məlumat yayıb.

Bildirilib ki, Cinayət Məcəlləsinin 188.3-cü maddəsinə əsasən, həmin əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə - təqsirkar şəxs (şəxslər) üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd edilib ki, yuxarıda göstərilən əməllər təkrar və ya şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə - təqsirkarı beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə cəzası gözləyir.

Torpaqlardan səmərəli və təyinatı üzrə istifadə edilməlidir. Qanunvericiliyə əməl etmək isə hamımızın borcudur.

# Meymunçiçəyi virusu insandan insana keçməyə başlayıb



***Hindistanın Kerala ştatında meymunçiçəyi virusunun yeni, təhlükəli bir növü aşkar edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Hindistan mətbuatı yazıb. Məlumata görə, genetik analiz infeksiyanın yayılmasının xarici səyahətlər və insandan insana ötürülmə ilə əlaqəli olduğunu göstərib.

Tədqiqat Hindistan Tibbi Tədqiqatlar Şurasının (ICMR), Virologiya İnstitutunun və bir neçə diaqnostika laboratoriyasının mütəxəssisləri tərəfindən birgə aparılıb. Alimlər virusun əvvəllər Afrikada müəyyən edilmiş Clade Ib ştamı olduğunu müəyyən ediblər. O, yüksək virulentliyə malikdir və insandan insana asanlıqla ötürülür.

Təsdiqlənmiş on xəstədən doqquzunun əvvəllər xaricə səyahət etdiyi məlum olub.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, 2025-ci il yanvarın 1-dən iyunun 30-dək dünyada, əsasən Afrikada, 79 ölkədə 30 022 xəstəlik və 119 ölüm hadisəsi qeydə alınıb.

***Ağarza Elçinoğlu***

# Bakıda azyaşlı və yeniyetmə faciəli şəkildə öldü

***Bakının Binəqədi rayonunda 10 yaşlı uşaq dəm qazından boğulub.***

"Unikal" xəbər verir ki, 2016-cı il təvəllüdlü U.V. yaşadığı E.Babayev küçəsində evin hamamında dəm qazından zəhərlənib. Xəstəxanaya yerləşdirilən U.V. orada ölüb.

Araşdırma aparılır. Dəm qazından növbəti ölüm hadisəsi isə Bakının Xəzər rayonunda qeydə alınıb.

Buzovna qəsəbə sakini, 2012-ci il təvəllüdlü Ə.N. yaşadığı evin hamam otağında dəm qazından zəhərlənərək ölüb.

Faktla bağlı araşdırma aparılır.

# Azərbaycan iqtisadi çətin günlərə hazırdır - Reytinq agentliyindən hesabat

***"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın suveren kredit reytinqi ilə bağlı yeni hesabat yayıb. Hesabata əsasən, Azərbaycanın kredit reytinqi Baa3 səviyyəsində saxlanılıb və müsbət perspektiv qorunub. Bu o deməkdir ki, mövcud şərait davam edərsə, gələcəkdə reytinqin yüksəldilməsi ehtimalı var.***




Agentlik bildirir ki, Azərbaycanın əsas üstünlüyü dövlətin güclü maliyyə ehtiyatlarıdır. Dövlət Neft Fondunda toplanmış vəsaitlər ölkənin borc yükünü tam şəkildə qarşılamağa imkan verir. Dövlətin xarici və daxili borcu nisbətən aşağı səviyyədədir və büdcə bu borcların ödənilməsində çətinlik yaşamır. Bu amil Azərbaycanın iqtisadi şoklara (məsələn, neft qiymətlərinin enməsinə və ya regional gərginliklərə) daha davamlı olmasını təmin edir.

Hesabatda qeyd olunur ki, son illərdə iqtisadi artım əsasən qeyri-neft sektorunun hesabına baş verir. Nəqliyyat, tikinti, informasiya texnologiyaları və tranzit sahələri artımın əsas mənbələrindən biri kimi göstərilir. Xüsusilə Orta Dəhliz üzrə daşımaların artması Azərbaycanın regionda logistik rolunu gücləndirir və bu, uzunmüddətli perspektivdə iqtisadiyyat üçün müsbət amil sayılır.

Bununla yanaşı, "Moody's" bir sıra risklərə də diqqət çəkir. Əsas risk ölkə iqtisadiyyatının hələ də neft və qazdan yüksək dərəcədə asılı olmasıdır. İxracın böyük hissəsi və büdcə gəlirlərinin əhəmiyyətli payı enerji sektorundan formalaşır. Neft hasilatının tədricən azalması isə gələcək illərdə büdcə gəlirləri üçün əlavə təzyiq yarada bilər.

Hesabatda Azərbaycanla Ermənistan arasında münasibətlərin nisbətən yaxşılaşmasının müsbət faktor olduğu qeyd edilir. Gərginliyin azalması və nəqliyyat əlaqələrinin bərpası regional ticarətə və investisiya mühitinə müsbət təsir göstərə bilər.

Ümumilikdə, "Moody's"in qiymətləndirməsinə görə Azərbaycan hazırda maliyyə baxımından güclü mövqedədir və qısa müddətdə ciddi risklə üzləşmir. Ancaq uzunmüddətli dövrdə reytinqin yüksəlməsi üçün neftdən asılılığın azaldılması, qeyri-neft sektorunun gücləndirilməsi və idarəetmə sahəsində real islahatların davam etdirilməsi həlledici olacaq.

Agentliyin qiymətləndirməsinə görə, 2025-ci ildə ölkədə iqtisadi artım tempi zəifləyərək təxminən 1,5 faiz olacaq. Bunun əsas səbəbi neft hasilatının azalmasıdır. Bununla belə, "Moody's" 2026-cı ildə iqtisadi artımın yenidən sürətlənərək 3 faizə yaxınlaşacağını, 2027-ci ildə isə 2,5 faiz ətrafında olacağını proqnozlaşdırır. Artımın əsas mənbəyi kimi qeyri-neft sektoru, xüsusilə nəqliyyat, logistika, tikinti və xidmət sahələri göstərilir.

Hesabatda inflyasiya ilə bağlı gözləntilərin də müsbət olduğu bildirilir. "Moody's" hesab edir ki, inflyasiya yaxın illərdə nəzarətdə qalacaq və Mərkəzi Bankın hədəf diapazonu daxilində olacaq. Belə ki, 2025-ci ildə orta illik inflyasiyanın 5 faizdən bir qədər yuxarı, 2026-cı ildə isə 4,5-5 faiz səviyyəsində olacağı gözlənilir. Agentlik bildirir ki, sabit daxili tələbat və kəskin qiymət şoklarının olmaması inflyasiya risklərini məhdudlaşdırır.

Büdcə və dövlət maliyyəsi ilə bağlı proqnozlara görə, neft gəlirlərinin azalması fonunda 2026-2027-ci illərdə büdcə balansında kəsir yarana bilər. Bununla belə, "Moody's" bu kəsirləri riskli hesab etmir. Agentlik vurğulayır ki, dövlət borcu ÜDM-in təxminən 23-24 faizi səviyyəsində qalacaq və bu göstərici həm region ölkələri, həm də eyni reytinq qrupunda olan dövlətlərlə müqayisədə aşağıdır. Böyük valyuta ehtiyatları və Dövlət Neft Fondunda toplanmış vəsaitlər isə Azərbaycanın maliyyə sabitliyini qorumağa davam edəcək.

# Bu il keçiriləcək buraxılış və qəbul imtahanlarının qrafiki açıqlandı

***Bu il keçiriləcək buraxılış və qəbul imtahanlarının qrafiki açıqlanıb.***



"Unikal" xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb. Belə ki, Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı iki zona olmaqla 9 və 15 mart tarixlərində keçiriləcək. Abşeron, Sumqayıt, Gəncə şəhərlərində yerləşən məktəblərin şagirdlərinin imtahanı hərəkət intensivliyinin azaldılması məqsədilə iki imtahan gününə bölünüb. Peşə liseylərinin məzunları liseyin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixlərdə imtahan verirlər (Sumqayıt və Abşeronda yerləşən peşə liseylərinin məzunları martın 9-da imtahan verəcəklər).

Ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı isə üç zona üzrə 5, 12 və 26 aprel tarixlərində təşkil olunacaq. İmtahandan 1 ay öncə zonalara aid olan şəhər və rayonlar haqqında məlumat veriləcək.

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün bütün abituriyentlərin qeydiyyatı (ərizə qəbulunun I mərhələsi) 18 fevral - 5 mart tarixlərində aparılacaq.

Əvvəlki illərin məzunları üçün ali təhsil müəssisələrinə qəbul imtahanının birinci mərhələsi aprelin 19-da keçiriləcək.

I, II, III və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinə uyğun sınaq imtahanı may ayında təşkil olunacaq. I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsinin birinci cəhdi may - iyun aylarında keçiriləcək. Bu imtahanlarda iştirak etmək üçün qeydiyyat isə aprel - may aylarında aparılacaq.

03_27 IYUl-QARA.qxd 1/22/2026 10:57 PM Page 14



# Əlavə təhsil hər kəs üçün ödənişli olacaq



***Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin Azərbaycan Respublikasının təhsil müəssisələrində ödənişli əsaslarla təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Elm və təhsil komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Təhsil haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Qanun layihəsində qeyd edilir ki, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsinə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" Qaydasının 8.2-ci bəndinə əsasən yenidənhazırlanma təhsili, təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili yalnız ödənişli əsaslarla həyata keçirilir və müvafiq maliyyə xərcləri kadrın çalışdığı təşkilat və yaxud kadrın özü tərəfindən ödənilir. Belə ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün də əlavə təhsil ödənişlidir və onların təhsilinə dövlət büdcəsindən vəsait ayrılmır.

Bu xüsusda, sözügedən məsələ ilə bağlı yuxarıda qeyd olunan normativ hüquqi aktlar arasında ziddiyyətin aradan qaldırılması məqsədilə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 14.8-1-ci maddəsində dəqiqləşdirmə xarakterli müvafiq dəyişikliklərin təsbit olunması təklif edilir.

***Anar Kəlbiyev***

# 18 yaşlı Ceyhunun qəhrəmanlıq dastanı

***Vətənimizin qeyrətli, mətin oğulları ayağa durub 30 il düşmən tapdağında qalan əzəli yurd yerimiz olan Qarabağı 44 günə azad etdilər. Bu qəhrəmanlıq, misilsiz hünər Azərbaycan hər tarixinə qızıl hərflərlə yazılan, dünyanı heyrətə salan bir zəfər oldu. Onun qazanılmasında Biləsuvar rayonunun Bəydilli kəndində dünyaya göz açan 18 yaşlı Ceyhun Nazim oğlu Gözəlzadə də şirin canından keçməyi bacardı. Əldə olunan parlaq qələbəmizdə yaşının çərçivəsinə sığmayan hünəri, cəsarəti onu bir evin oğlundan, bir xalqın övladına çevirdi.***



Adı hər bir azərbaycanlı üçün əziz və doğma olan, həyata sevgi və gələcəyə ümidlə baxan Ceyhun kənd orta məktəbini nümunəvi davranış, yüksək qiymətlərlə bitirir. Yaşayışı rahat, yaxşı olsa da, Vətəninin bir parçası- Qarabağımıza dadanmış işğalçı erməni quldurların harınlığını heç cür vicdanına sığışdıra bilmir. Tezliklə dığaların ilan başını əzib onları Qarabağdan qovmaq inamı, qalibiyyət düşüncəsi onu ordu sıralarına aparır. 2020-ci ilin iyul ayında Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə düşməndən qisas almaq məqsədilə həqiqi hərbi xidmətə başlayır. Olduqca mərd, cəsur, ağıllı, Vətəninə, xalqına bağlı bir gənc olaraq qısa zaman kəsiyində əsgərlərin, zabitlərin hörmətini qazanır. Hamı onu Azərbaycanın ən qeyrətli oğlu bilir.

Ceyhun komandirlərin verdiyi bütün tapşırıqlarını vaxtında, dəqiq yerinə yetirir, təlimlərdə bir qayda olaraq həmişə fərqlənir. Cəsur, nümunəvi əsgər, həmçinin düşmənin işğalına qarşı barışmaz mövqe ortaya qoyur və yağıların ələ keçirdikləri Vətən torpaqların hər qarışı uğrunda son damla qanına qədər döyüşəcəyinə and içir. Ən böyük arzusu Xocalının, şəhidlərin qisasını almaq, Qarabağın, Azərbaycana məxsus bütün ərazilərin Ermənistan silahlı qüvvələrinin işğalından xilas etmək və Şuşaya kimi qəhrəmancasına vuruşmaq olur.

Ceyhun əsgərliyinin üç ayını başa vuranda İkinci Qarabağ müharibəsi başlanır. Həyatı dərk edən gündən arzuladığı məqamın yetişməsinə ürəkdən sevinir və çəkinmədən düşmənlə ölüm-dirim savaşına girir. Qatıldığı birneçə qızğın vuruşdan zəfərlə çıxır. Komandirləri yağı üstünə qartal kimi şığımasını, ölümün gözünə dik baxa-baxa düşmənə anında vurduğu sarsıdıcı zərbələrini görəndə onunla qürur duyurlar. Beləcə çox döyüşdə yağının kabusuna çevrilir Ceyhun.

Vətən, torpaq uğrunda hər an can qoymağa hazır olan əsgər Ceyhun müharibənin ən qaynar yeri olan Ağdərə rayonu istiqamətində gedən döyüşlərə könüllü qoşulur. Və ardıcıl olaraq üç gün erməni dığalarına qan qusdurur. Elə burada-müharibə meydanında qismətinə yazılan ən uca məqama yetişir. Şəhid olduğu yerdə daha bir qələbə bayrağımız ucalır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Ali Baş Komandan İlham Əliyevin Sərəncamları əsasında milyonların ürəyində əbədi məkan quran Ceyhun Gözəlzadə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Suqovuşanın və Füzulinin azadlığı uğrunda medalları ilə təltif edilir.

Bəli, Ceyhun Gözəlzadə ömrünün ən gözəl çağında Vətən naminə şəhidlik zirvəsinə ucaldı. Buda hər bəşər övladına nəsib olmayan böyük şərəf və qürurdur. Ceyhun kimi oğlanlar heç zaman ölmürlər.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

## Samuxda 2026-cı ilin məhsulu üçün 11884,1 hektar sahədə payızlıq taxıl səpini aparılıb




***Ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir.***

Aqrar elmin qarşısında duran əsas məsələ daha yüksək miqdarda məhsul istehsal etməklə əhalinin taxıl və taxıl məhsullarına olan tələbatının tam ödənilməsindən ibarətdir. Ona görə də taxılçılığın inkişafına diqqətin artırılması mühüm məsələ kimi qarşıya qoyulmuşdur.

Taxıl istehsalının artırılmasında məhsuldar, yerli iqlim şəraitinə və xəstəliklərə davamlı, yüksək reproduksiyalı taxıl toxumlarının istehsalı və səpin zamanı bu toxumlardan istifadə olunması böyük əhəmiyyət kəsb edir.

2026-cı ilin məhsulu üçün rayon üzrə dən və yaşıl yem məqsədi ilə 11884,1 hektar sahədə payızlıq taxıl səpini aparılmışdır.

Payızlıq taxıl səpininin 10762,2 hektarı və ya 90,6 faizi dən üçün, 1121,9 hektarı və ya 9,4 faizi yaşıl yem məqsədi ilə əkilmişdir. Dən üçün aparılmış əkinin 5268,5 hektarı və ya 49,0 faizi buğda, 5493,7 hektarı və ya 51,0 faizi dən üçün arpa olmuşdur.

2026-cı ilin məhsulu üçün aparılmış payızlıq taxıl səpininin 335,0 hektarı və ya 2,8 faizi dövlət kənd təsərrüfatı müəssisələrinin, 4947,5 hektarı və ya 41,6 faizi qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin, 6601,6 hektarı və ya 55,6 faizi ailə kəndli və ev təsərrüfatlarının payına düşür.

***Samux Rayon Statistika İdarəsi***

## 2025-ci ilin 9 ayı üzrə Yevlax şəhərində tikintinin əsas göstəricilərinə dair




***2025-ci ilin yanvar-sentyabr aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 65594,6 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə çox investisiya yönəldilmişdir.***

2025-ci ilin yanvar-sentyabr ayları ərzində əsas kapitala yönəldilmiş investisiyaların 61528,0 min manatı dövlət mülkiyyətnə, 4066,6 min manatı isə qeyri dövlət mülkiyyətinə yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 63250,1 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə və ya 32573,5 min manat çox olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş tikinti işlərin həcmi 1130,5 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1587,1 min manat və ya 58,4 faiz az olmuşdur. Yerinə yetirilmiş işlərin dəyərinin 911,0 min manatı cari təmir işlərinə, 219,5 min manatı sair tikinti işlərinə sərf edilmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında fəaliyyət göstərən tikinti müəssisələrində siyahı tərkibli işçilərin orta sayı 127 nəfər olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında muzdlu çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 515,1 manat, əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,4 faiz çox olmuşdur.

***Yevlax Şəhər***
***Statistika İdarəsinin aparıcı məsləhətçisi***
***Şamxal Mirzəyev***

03_27 IYUI-QARA.qxd 1/22/2026 10:58 PM Page 15



## "Bu məsələ Moskvanı narahat etmir" - Peskov

***"Rusiya hakimiyyəti ölkənin problemlərinin həllinə üstünlük verir. Qrenlandiya məsələsi Moskvanı narahat etmir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

Kremlin sözçüsü vurğulayıb ki, "Qrenlandiya ilə bağlı hər hansı bir məsələ bizim işimiz deyil".

*Gülayə Mecid*

## Xaçaturyan açıq ürək əməliyyatı olunur

***Azərbaycanın təhvil verdiyi Vaqif Xaçaturyan hazırda əməliyyat edilir.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV yazıb.

O, İrəvandakı Nork-Maraş Tibb Mərkəzində açıq ürək əməliyyatı olunur.

*Ağarza Elçinoğlu*

## Davosda ABŞ bayrağı yandırıldı

***İsveçrənin Davos şəhərində ABŞ Prezidenti Donald Trampa və hazırda keçirilən Dünya İqtisadi Forumuna qarşı etiraz aksiyası keçirmək üçün Sürix küçələrinə iki mindən çox insan çıxıb.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

Etirazçılar fişənglər, tüstü bombaları və alovlar atıblar. Polis su şırnaqları, gözyaşardıcı qaz və rezin güllələrlə cavab verib.

Etirazçılardan biri ABŞ bayrağını yandırıb. Hazırda xəsarət alanlar barədə məlumat yoxdur.

*Ağarza Elçinoğlu*

## "İranda vəziyyət hələ də sabit deyil" - Zaxarova

***Rusiya Xarici İşlər Nazirliyi vətəndaşlara İslam Respublikasındakı vəziyyət tam normallaşana qədər İrana səfərlərini təxirə salmağı tövsiyə edir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib.

Onun sözlərinə görə, İranda qalan ruslara hələ də ehtiyat tədbirləri görmək tövsiyə olunur.

Xatırladaq ki, 2025-ci il dekabrın 29-da İran valyutasının kəskin ucuzlaşması səbəbindən Tehranda tacirlərin etiraz aksiyası başlayıb. Dekabrın 30-da aksiyaya tələbələr də qoşulub. Az sonra etirazlar ölkənin əksər böyük şəhərlərə yayılıb. Tehran iğtişaşlara görə İsraili və ABŞ-ı günahlandırıb. Donald Tramp isə öz növbəsində İrana qarşı güc tətbiqini ciddi şəkildə nəzərdən keçirdiyini deyib. İranda son iğtişaşlar nəticəsində ölənlərin sayı 3117 nəfərə çatıb, onlardan 2427-si günahsız mülki şəxslər və təhlükəsizlik qüvvələrinin əməkdaşlarıdır.

*Gülayə Mecid*

## Məsud Pezeşkiana sui-qəsd ola bilər

***"Mafiyanın Prezident Məsud Pezeşkianı öldürməsi ehtimalı var".***

Bunu "Həmşəhri TV" efirində bir iqtisadi ekspert iddia edib. Onun sözlərinə görə, mafiya güzəştli valyuta satışının ləğvindən sonra İran Prezidentin öldürülməsi fikrinə düşə bilər. Çünki dövlətin öz ehtiyatlarından aşağı qiymətə satdığı xarici valyuta hesabına kriminal qurumlar qanunsuz qazanc əldə edirlər: "Mən Prezidentə görə çox narahatam. Onlar gəlirlərinin itirilməsi ucbatından Məsud Pezeşkiana qəsd edə bilərlər".

Xatırladaq ki, İslam Respublikasında dövlətin xarici valyuta ehtiyatları xüsusi ixrac-idxal əməliyyatları üçün 42000 tümən qiymətinə satılır. Sərbəst "exchange"də isə 1 ABŞ dolları üçün son qiymət təxminən 130 min tüməndir. ("Yeni Sabah")

## "ABŞ hərəkətə keçib nüvə təsisatlarını darmadağın etdi" - Tramp

***"İranın nüvə silahı əldə etməsinə iki ay qalmışdı və ABŞ hərəkətə keçib nüvə təsisatlarını darmadağın etdi".***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Tramp Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimində bildirib.

"İran danışmaq istəyir. Biz danışacağıq", - Tramp qeyd edib. ABŞ Prezidenti Livandakı Hizbullah təşkilatı ilə bağlı məsələyə də toxunub.

"Bununla bağlı bir şey etməliyik", - Tramp vurğulayıb.



## "Sipan Hemo" Suriyada öldürüldü

***YPG/SDG-nin ikinci komandiri kimi tanınan və son zamanlar İsrailə etdiyi zənglərlə gündəmə gələn "Sipan Hemo"nun Suriyanın Qamışlı bölgəsində pilotsuz təyyarənin hücumu nəticəsində öldürüldüyü iddia edilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Takvim" qəzeti yazıb.

Qeyd olunur ki, hücum nəticəsində "Sipan Hemo" ləqəbli Semir Asunun da daxil olduğu bir neçə yüksək vəzifəli şəxs zərərsizləşdirilib. Suriyalı jurnalistlər də sosial media paylaşımlarında Sipan Hemonun pilotsuz təyyarə hücumunda öldüyünü təsdiqləyiblər.



"Sipan Hemo", "Məzlum Kobani" kod adı ilə tanınan Ferhat Abdi Şahindən sonra təşkilatın Suriyadakı ikinci komandiri kimi tanınırdı. Təşkilatın Suriya strukturunda Qəndil kadrlarının ən yüksək rütbəli nümayəndəsi olan "Hemo"nun, yüksək rütbəli PKK fiquru Bahoz Erdalın ən yaxın adamlarından biri olduğu deyilirdi.

*Gülayə Mecid*

## Ermənistan "Sülh Şurası"na rəsmi şəkildə qoşuldu

***Ermənistan "Sülh Şurası"nın nizamnaməsini imzalayacağını təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Baş naziri Nikol Paşinyan qərar qəbul edib.

"Ermənistan Respublikası hökuməti "Beynəlxalq müqavilələr haqqında" Qanunun 7-ci maddəsinə əsasən, "Sülh Şurası"nın nizamnaməsinin imzalanması təklifini təsdiqləmək qərarına gəlir", - qərarda deyilir.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp Qəzzadakı vəziyyət kontekstində "Sülh Şurası"nın yaradıldığını elan edib və Ermənistan, Azərbaycan, Rusiya və Belarus da daxil olmaqla bir sıra dövlətlərin liderlərini "Sülh Şurası"na dəvət edib.



## 1 səs 1 milyon dollar - Trampdan ada sakinlərinə təklif

***ABŞ prezidenti Donald Tramp adanın ABŞ-yə birləşdirilməsinə səs verəcəyi təqdirdə hər bir Qrenlandiya sakininə 1 milyon dollar təklif etməyi planlaşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə Britaniyanın "Daily Mail" qəzeti yazıb.

Qeyd olunur ki, siyasətçi hazırda bu ideyanı nəzərdən keçirir. Qrenlandiyada 57.000 nəfər yaşayır.



Qrenlandiya Danimarka Krallığının bir hissəsidir. Lakin Tramp dəfələrlə adanın Amerika dövlətinin bir hissəsinə çevrilməli olduğunu bildirib. Yanvarın 5-də o, ölkəsinin milli təhlükəsizliyini təmin etmək üçün Qrenlandiya üzərində nəzarət yaratmaq planlarını açıqlayıb. Danimarka Müdafiə Nazirliyi ABŞ-nin adaya hücumu halında cavab zərbəsi endirəcəyinə söz verib.

*Gülayə Mecid*

## Rəhman Mustafayev Rusiya MN-də görüş keçirdi

***Azərbaycanın Moskvadakı səfiri Rəhman Mustafayev Rusiya Müdafiə Nazirliyində olub və nazir müavini Vasili Osmakovla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb. Bildirilir ki, görüş zamanı müdafiə nazirlikləri arasında Azərbaycan-Rusiya əməkdaşlığının cari məsələləri ətrafında fikir mübadiləsi aparılıb, bu il üçün təmasların və qarşılıqlı səfərlərin cədvəli müzakirə edilib.

Qeyd olunur ki, hər iki tərəf 22 fevral 2022-ci il tarixli Müttəfiq Qarşılıqlı Əlaqə haqqında Bəyannaməyə uyğun olaraq hərbi-siyasi və hərbi-texniki sahələrdə ikitərəfli dialoq və əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair konstruktiv öhdəliklərini bir daha təsdiqləyiblər.

*Gülayə Mecid*



03_27 IYUl-QARA.qxd 1/22/2026 10:58 PM Page 16



# "Qarabağ"ın qolu, ədalətsizliyə qarşı vurulan zərbə...



*"Qarabağ" UEFA Çempionlar Liqasının əsas mərhələsinin VII turunda "Ayntraxt" ilə qarşılaşdı.*

Alman klubuna qarşı oynayan "köhlən atlar" doğma meydanda oyuna inamla başladı. Azərbaycan çempionu matçın dördüncü dəqiqəsində Kamilo Duranın qolu ilə hesabda irəli keçdi. Lakin bu qola çox sevinə bilmədik. Qonaqların heyətində oynayan Can Uzun 11-ci dəqiqədə hesabı bərabərləşdirdi. Oyunun ilk yarısı bərabərliklə başa çatdı.

İkinci hissə isə daha gərgin keçdi. Hər iki komandaya 3 xalı qazanmaq lazım idi. Qonaqlar ard-arda gələn məğlubiyyət və bərabərliklər seriyasını bitirməyə can atırdı. "Qarabağ" UEFA Çempionlar Liqasının turnir cədvəlində rəqibdən üç xal öndə olsa da, ilk 24-lükdə olmaq üçün növbəti 3 xalı təmin etmək istəyirdi.

Oyunun gedişatında "Ayntraxt" baş hakim Sandro Şarerin penalti qərarından yararlandı. Fares Çaibi topu qapıya göndərdi və rəqib bununla da hesabda önə keçdi - 1 - 2.

Hakimin bu qərarı haqlı idi. Lakin həmin qoldan az öncə oxşar epizod rəqibin qapısı önündə də yaranmışdı. Hər kəs hakimdən 11 metrlik cərimə zərbəsi qərarını gözləsə də, o, bundan imtina etdi və oyuna davam dedi.

Bundan sonra ekranda Ağdam təmsilçisinin baş məşqçisi Qurban Qurbanov göründü. Təbii ki, yenə də təmkinli və soyuqqanlı idi. Əli ilə futbolçularına işarə verdi. Ondan sonra oyunun taleyi dəyişdi...

Hakimin bu qərarı və oyun boyu etdiyi ədalətsizliklərə "Qarabağ"ın yalnız bir cavabı ola bilərdi - qol vurmaq. Qurbanovun tapşırığı da məhz bu idi. Elə də oldu. Penaltidən iki dəqiqə keçər-keçməz Kamilo Duran dubl edərək "Qarabağ"da bərabərlik qolunu vurdu. Bu, hələ heç nəyin bitmədiyi, inamın hələ də olması demək idi.

Elə oyunun başlanğıcında stadionda azarkeşlərin açdığı plakat kimi: "Bizim inancımız sizin büdcənizdən daha böyükdür". Bəli, bu işlər büdcə ilə yox, ürəklə olan işlərdir. Əks halda 400 milyondan çox büdcəsi olan "Ayntraxt" qalib gələrdi...

İnandıq, "Qarabağ"a güvəndik, nəticədə isə "köhlən atlar" qalib gəldi. 90+4-cü dəqiqədə Bəhlul Mustafazadə qələbə qolunu vurdu. Bu qol təkcə qələbə qolu yox, ədalətsizliyə qarşı vurulan zərbə idi.

Onu da deyim ki, 28 yaşlı müdafiəçimiz UEFA Çempionlar Liqasının əsas mərhələsində qol vuran ilk azərbaycanlı futbolçu kimi tarixə düşdü.

Axı "Qarabağ" ruhunu adını daşıdığı coğrafi ərazimizdən alır. Xalq olaraq ədalətsizliyi nə oyunda, nə siyasətdə qəbul edirik. Elə 44 günlük Vətən müharibəsinə səbəb olan Qarabağ münaqişəsində də belə olmuşdu. 30 il ədalətsizliklə üzləşdik, səbr etdik, nəticədə ədaləti döyüş meydanında öz gücümüzlə bərpa etdik. "Qarabağ"ın oyunçuları da ədaləti oyun meydançasında öz gücləri ilə təmin etdi. Beləliklə, Tofiq Bəhramov adına Respublika Stadionu, həmçinin dünya daha bir tarixi oyuna şahidlik etdi.

Qurban Qurbanov qazanılan qələbə qarşısında göz yaşlarını saxlaya bilməyib.Matç Azərbaycan çempionunun 3:2 hesablı qələbəsi başa çatdı. Qurban Qurbanov kimi təmkinli, hisslərini büruzə verməyən şəxs, qazanılan qələbə qarşısında göz yaşlarını saxlaya bilmədi. Gözlərdən çıxan hər damla yaş ədalət tərəzisinin bərqərar olduğunun carçısı idi.

Bununla da ağdamlılar cari mövsüm Çempionlar Liqasının Liqa mərhələsindəki xallarının sayını 10-a çatdırdılar.

***Ağarza Elçinoğlu***



# "Səbail"dən yeni transfer

***21 yaşadək futbolçulardan ibarət Azərbaycan millisinin üzvü Qurban Səfərov "Səbail"ə keçib.***

Klubdan "Unikal"a verilən məlumata görə, onunla mövsümün sonuna qədər müqavilə imzalanıb.

Qurban Səfərov son olaraq "Mingəçevir"də çıxış edib.

# "Liverpul"la oyuna xal və ya xallar qazanmağa gedəcəyik - Bəhlul

***"Penalti epizodunda çox məyus idim, matçın gedişində qol vurmağı düşünürdüm".***

"Unikal" xəbər verir ki, bu sözləri "Qarabağ"ın futbolçusu Bəhlul Mustafazadə deyib.

"Ayntraxt"la matçda fərqlənməklə Çempionlar Liqasının əsas mərhələsində qol vuran ilk azərbaycanlı futbolçu Bəhlul fikirlərinə belə davam edib:

"Əsas olan komandamın qələbəsidir. "Ayaks"la oyundan sonra haqlı tənqidlər var idi. Amma biz toparlanmağı bacardıq. Qarşıda "Liverpul"la ağır oyun bizi gözləyir. Rəqib haqqında geniş danışmağa ehtiyac yoxdur. Lakin biz ora xal və ya xallar qazanmağa gedəcəyik".

# Azərbaycanda oynayırdı, Qırğızıstan klubuna keçdi



***Azərbaycanda "Sabah" və "Kəpəz"də oynamış Mixeil Erqemlidzenin yeni klubu bəlli olub.***

Gürcüstanlı vinger karyerasını Qırğızıstanda davam etdirəcək.

26 yaşlı futbolçu bu ölkənin "Neftçi" klubuna keçib. Onunla bir illik müqavilə imzalanıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, Erqemlidze 2021-2022 mövsümündə "Sabah"a çıxış edib. "Kəpəz"də də icarə əsasında oynamış gürcüstanlı futbolçu Azərbaycanı tərk etdikdən sonra "Brera"(Şimali Makedoniya"), "Betlemi" (Gürcüstan), "Kirivonq"(Kamboca), "Tauras"(Litva) və "Varnsdorf"(Çexiya) klublarında oynayıb.

# "Qarabağ"ın hücumçusu ÇL-in bombardirləri siyahısında!

***"Qarabağ"ın hücumçusu Kamilo Duran UEFA Çempionlar Liqasının bombardirlər siyahısında yer alıb.***

QOL.az-ın xəbərinə görə, Ağdam klubunun kolumbiyalı futbolçusu TOP-10-luqda yer alır. Ehtiyatında 4 qolu olan 23 yaşlı oyunçu 9-cu yeri tutur. Duranla yanaşı daha 10 futbolçu 4 dəfə rəqib qapılarına yol tapıb.

Bombardirlər siyahısına 11 qolla "Real"ın hücumçusu Kilian Mbappe başçılıq edir.

"Qarabağ"ın daha bir futbolçusu Leandro Andrade isə 3 qolla 20-ci pillədə qərarlaşıb.

Xatırladaq ki, Kamilo Duran dünən "Ayntraxt"a qarşı görüşdə (3:2) 2 qol vurub. O, həm də matçın ən yaxşı oyunçusu seçilib.

# Azərbaycan UEFA reytinqində irəlilədi

***Çempionlar Liqasının Liqa mərhələsinin 7-ci turunda keçirilən matçlardan sonra ölkələrin UEFA reytinqi yenilənib.***

"Unikal" xəbər verir ki, Azərbaycan təmsilçisi "Qarabağ" ötən gecə Bakıda "Ayntraxt"ı məğlub edib. Qurban Qurbanovun komandası ölkəmizə 0,500 əmsal qazandırıb.

Nəticədə Azərbaycanın reytinq sıralamasındakı mövqeyi dəyişib. Azərbaycan 22.750 əmsalla 27-ci yerə yüksəlib.

Sloveniya 22,843 əmsalla 26-cı, Slovakiya isə 22,375 əmsalla 28-ci pillədədir.

Qeyd edək ki, UEFA reytinqinə İngiltərə (104.769) liderlik edir.

# Medina ÇL-in ilk "5-liy"ində



***Çempionlar Liqasını Liqa mərhələsinin 7-ci turunun oyunlarından sonra futbolçuların fərdi statistikaları da yenilənib.***

QOL.az xəbər verir ki, "Qarabağ"ın oyunçusu Kevin Medina ötən gecə "Ayntraxt"la (3:2) matçdan sonra ən yaxşı göstəriciyə malik futbolçular arasında yer almağı bacarıb.

32 yaşlı müdafiəçi əsas mərhələdə ən çox top qazanan oyunçulardan olub. 7 görüşdə ümumilikdə 52 dəfə top qazanan Medina sıralamada 5-cidir.

Cədvələ "Atletik"dən Aytor Parades (68) liderlik edir. "Atalanta"dan Odilon Kossunu (56) 2-ci, "Kayrat"dan Yeqor Sorokin (54) 3-cü, "Slaviya"dan David Zima (53) isə 4-cüdür.

Qeyd edək ki, Kevin Medina 2020-ci ilin iyul ayından "Qarabağ"ın formasını geyinir.

03_27 IYUI-QARA.qxd 1/22/2026 10:58 PM Page 2



# "Hamısı, içi Musa qarışıq qurban olsunlar o kişiyə" - Təranə Qumral



***Müğənni Təranə Qumral son açıqlamaları ilə diqqət mərkəzinə düşüb.***

Xanım sənətçi qızına qarşı haqsız münasibət olduğunu bildirib və uzun müddətdir susduğunu vurğulayıb.

Sənətçi açıqlamasında bəzi şəxslərin məsələyə yanlış şəkildə cəlb edildiyini deyərək Xalq artisti Niyaməddin Musayevin bu mövzuya aidiyyəti olmadığını xüsusi qeyd edib. O, Musayevə olan hörmətini belə ifadə edib: "Onların bütün sülaləsi qurban olsun o kişiyə. Mən əvvəllər də hər şeyi ona qurban etmişəm. O insan bu məsələlərə qətiyyən aid deyil, tamamilə ayrı adamdır. Xalq artistidir, prezident təqaüdçüsüdür, Şöhrət ordeni sahibidir. 32 ildir deyirəm ki, hamınızı o kişiyə qurban etmişəm - içi Musa qarışıq. Susmuşam, amma danışmalı olduğum çox şey var. Niyaməddin Musayevə hörmətə görə bu günə qədər danışmamışam".

# "Bir tərəfdən mənə, digər tərəfdən Alim müəllimə daş atırlar" - Fərqanə Qasımova



***Xalq artisti Alim Qasımovun nəvəsi, Əməkdar artist Fərqanə Qasımovanın qızı Mövlanənin toy mərasimindən yayılan görüntülər sosial media platformalarında müzakirələrə səbəb olub. Mövlanənin toy günü mediaya verdiyi açıqlama zamanı "Fəriddən tələb edirəm və arzumdur" fikri, eyni zamanda sosial şəbəkə platformalarında yayılan videoları birmənalı qarşılanmayıb. Bir sıra istifadəçilər onun səsləndirdiyi fikirləri və sərbəst davranışlarını tənqid edib.***

"Unikal" "news24.az"a istinadən xəbər verir ki, müzakirələr fonunda Mövlanənin anası, Əməkdar artist Fərqanə Qasımova mövzuya münasibət bildirib. O, açıqlamasında yaranan müzakirələri ciddi hesab etmədiyini vurğulayıb.

Fərqanə Qasımovanın sözlərinə görə, Azərbaycan cəmiyyətində həm müsbət, həm də təəssüf doğuran yanaşmalar mövcuddur: "Cəmiyyətimizdə gözəl xüsusiyyətlərlə yanaşı, təəssüf doğuran məqamlar da var. Ya yıxılanı qaldırırlar, ya da çox qabağa gedəni geri çəkməyə çalışırlar. Buna görə də bu məsələyə reaksiya vermək istəmədim. Mənə elə gəlir ki, gözəl baxmaq və gözəl düşünmək gözəl qəlbdən irəli gəlir. Kimin qəlbi gözəldirsə, hər şeyi də gözəl görəcək. Mən burada hər şeyi gözəl gördüm".

Əməkdar artist bildirib ki, onun üçün ən vacib məsələ övladının xoşbəxtliyidir: "Qızıma yalnız xoşbəxtlik arzulayıram. O, hər şeyi yaxşı bilən, ağıllı bir insandır. Mən həmişə ona dəstək olmuşam və bundan sonra da olacağam. Mən millətimin hansına söz deyə bilərəm ki? Bir tərəfdən mənə, digər tərəfdən Alim müəllimə daş atırlar. Halbuki ailəmizi sevən insanların sayı çoxdur".

Əməkdar artist əlavə edib ki, sosial şəbəkədə mənfi fikirlər yazanlar daha çox aqressiyalarını nümayiş etdirirlər: "Alim müəllimin çox gözəl tərbiyəsi var, o susmaqla öz mövqeyini bildirir. Mən də eyni mövqedəyəm".

# "Mənim sənətim sosial mediaya sığmaz" - Brilliant Dadaşova



***Xalq artisti Brilliant Dadaşova sosial şəbəkə paylaşımı ilə diqqət çəkib.***

Müğənni sosial mediadan yazıb. O bildirib ki, sosial media paylaşımlarına önəm vermir: "Mən səsimlə, sənətimlə sənətkar adını qazanmışam. Sosial media mənim üçün sevənlərimlə görüşüb, əylənəcəyimiz yerdir. Burada dostlarımla sənətimi deyil, sadəcə hiss etdiklərimi paylaşıram. Mənim sənətim sosial mediaya sığmaz".

# Vüsalə buna görə efirə çıxmır



***Xəbər verdiyimiz kimi, aparıcı Vüsalə Əlizadə bir neçə gün efirə çıxmayacaq. Onu proqramda həmkarı Mətanət Əliverdiyeva əvəzləyəcək.***

"Unikal" xəbər verir ki, axşam.az-a danışan Vüsalə səhhətində problem olduğunu deyib. O bildirib ki, qızı Dilək və özü virusa yoluxub: "Hərarətim var, halım yoxdur. Bu viruslardan mən və qızım da tutub. Taqetim yoxdur".

Qeyd edək ki, V.Əlizadə bir müddət əvvəl də sosial şəbəkə hesabında paylaşım edərək, bir neçə gün müalicəyə gedəcəyini yazmışdı.

# "Aysun "Hiss"dən çox tanınır" - Rəqsanə İsmayılova



***Müğənni Rəqsanə İsmayılova maraqlı açıqlama verib.***

"Rəngarəng"də qonaq olan ifaçı bir çox müğənniləri "Hiss"dən üstün tutub.

Rəqsanə "Aysunu daha çox tanıyırlar, yoxsa Hissi" sualına isə belə cavab verib: "Əlbəttə Aysunu. Regionlara çıx Aysunun mahnılarını bilirlər, amma Hissi bir mahnısı ilə tanıyırlar. Mən Hissi daha çox reklamlarda görürəm".

# Xanımının hərəkəti Miri Yusifi əsəbiləşdirdi

***Xalq artisti Miri Yusif həyat yoldaşı Nərgizlə istirahətə yollanıb.***

Cütlük Gürcüstana gedib. Tiflisdə dincələn müğənninin görüntülərini xanımı sosial şəbəkədə paylaşıb.

Onun video çəkməsinə isə Miri Yusif əsəbiləşib. Belə ki, o, Nərgizin "Gedirik gəzməyə" sözlərinə müğənni "Kimə maraqlıdır sən hara gəlmisən? Qurtar, Nərgiz" reaksiyasını verib.

Nərgiz daha sonra videosuna "Dedim, xaçapuri istəyirəm, dedi gedək Tiflisə. Tez bilet, otel etdik gəldik" sözlərini əlavə edib.

